Günəş Şərqdən doğur!
№ 203 (5724), 2022-ci il
Qiyməti 40 qəpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az
5 noyabr 2022-ci il (şənbə)

## Tələbə təqaüdləri 20 faiz artırılacaq

Müharibə veteranlarının problemləri də hökumətin qarşısında duran prioritet məsələlərdən biridir



**"Minimum pensiya məbləğinin artırılması daim gündəlikdədir".**

Bunu Milli Məclisin komitələrinin birgə iclasında "2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib. Nazir bildirib ki, ehtiyac meyarı ilə yaşayış minimumunun bərabərləşdirilməsi qarşımızda duran hədəflərdəndir...

(Səh.3)



## İrana qarşı birgə mübarizə hazırlanır

ABŞ, Britaniya, Almaniya və Fransa müzakirə aparıb

**"İranın davam edən nüvə eskalasiyasının beynəlxalq təhlükəsizliyə yaratdığı təhdidləri müzakirə etmək üçün bu gün ABŞ-ın dövlət katibi Entoni Blinken, Almaniyanın xarici işlər naziri Annalena Berbok və fransalı həmkarım Katrin Kolonna ilə görüşlər keçirdim".**

Bunu Böyük Britaniyanın xarici işlər naziri Ceyms Kleverli tvitterdə yazıb.

Onun sözlərinə görə, Böyük Britaniya İranın heç vaxt nüvə silahı əldə etməməsi üçün beynəlxalq tərəfdaşlarla işləməyə davam edəcək.




## ABŞ İranla bağlı plan hazırlayıb

Ölkə molla rejimindən azad olunacaq

**ABŞ Prezidenti Cozef Bayden İranda cərəyan edən proseslərə münasibət bildirib.**

Bayden deyib ki, tezliklə İrandakı qarışıqlıqlar sona çatacaq: "Narahat olmayın, biz İranı azad edəcəyik, onlar tezliklə azad olacaqlar". Dövlət başçısının çıxışı zamanı nümayişçilər İrandakı etirazları dəstəkləyən plakatlarla küçələrə axışıblar.

(Səh.8)

## Toqquşma və iğtişaş təhlükəsi gözlənilir

ABŞ səfirliyi Ermənistandakı həmvətənlərinə xəbərdarlıq edib

ABŞ-ın Ermənistandakı səfirliyi vətəndaşlarına müxalifət hərəkatının paytaxt İrəvanda noyabrın 5-də keçirəcəyi mitinqdə iştirak etməmək barədə xəbərdarlıq edib.

(Səh.4)

## Azərbaycan Ordusu Ermənistan mövqelərinə atəş açmayıb



**Azərbaycan Ordusunun bölmələri tərəfindən guya qarşı tərəfə atəş açılması barədə Ermənistan müdafiə nazirliyinin yaydığı məlumat yalandır.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə atəş açılmayıb.

## Yod heç də orqanizmi nüvə radiasiyasından qorumur

Professorun sözlərinə görə, ekstremal durumlarda insanların şayiə və qeybət mədəniyyətinin dalınca düşməsi təəssüf doğurur




**Azərbaycanda yodun qiyməti kəskin artıb. Bu barədə sosial şəbəkələrdə də məlumat yayılıb. Əvvəllər 0.40 qəpiyə satılan yod hazırda apteklərdə 1,20 manatadır.**

Məlumat üçün bildirək ki, Taarif (qiymət) Şurasının 26 oktyabrda keçirilən iclasında yeni dövlət qeydiyyatına alınan 76 dərman vasitəsinin qiyməti təsdiq edilib. Həmin siyahıda yod da əlavə olunub. Bu siyahıda bir neçə ölkə istehsalı olan yod var.

Ancaq hazırda apteklərdə satışda olan əsasən Rusiyanın Yaroslav əczaçılıq fabrikinin 5 faizli 10 ml olan məhsuludur. Onun pərakəndə qiyməti oktyabrın 31-dən 1,19 manat müəyyən edilib. Taarif Şurasının siyahısında olan qiymətlərdən biri dərmanların topdan, digəri pərakəndə satış qiymətidir. Məsələn, aptek yodu 0,99 manata alıb, 1,19 manata satmalıdır.

(səh.8)

## Velosiped yolları və piyada səkiləri inşa edilib

Artıq yolun bir qismində işlər yekunlaşıb



**Bakı Nəqliyyat Agentliyinin təqdim etdiyi layihə əsasında Buzovna-Mərdəkan avtomobil yolu üzərində "Bakı Abadlıq" MMC tərəfindən uzunluğu 8.2 km olan velosiped yolları və piyada səkiləri inşa edilib.**

Bu barədə Bakı Nəqliyyat Agentliyindən bildirilib.

Artıq yolun bir qismində işlər yekunlaşıb. Bunun sayəsində qeyd olunan yol sahəsində piyadaların təhlükəsiz, rahat hərəkətini təmin edilib.

## Naxçıvan üzərindən Türkiyəyə dəmiryolu xətti çəkiləcək



**Azərbaycanın əsas hissəsi ilə Türkiyə arasında Naxçıvan vasitəsilə birbaşa dəmir yolu əlaqəsinin təmin edilməsi baxımından Qars-Iğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu layihəsinin reallaşdırılması mühüm əhəmiyyət kəsb edir.**

Bu barədə dünən Bakıda keçirilən Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 10-cu iclasında deyilib.

(səh.5)



## "Azərbaycanda iki partiya olsa, bəsdir"

Novella Cəfəroğlu deyib ki, digər partiyalar da təhsil, səhiyyə ilə məşğul olunlar, birləşsinlər

(səh.5)



## Ermənistanla sərt dildə danışmaq lazımdır

Tofiq Zülfüqarov: "Brüsseldə delimitasiya və demarkasiyanı müzakirə etmək məntiqdən uzaqdır"

(səh.4)

# Prezident İlham Əliyev Türkiyənin vitse-prezidentini qəbul edib

## Söhbət zamanı Şuşa Bəyannaməsinin önəmi vurğulanıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktayı qəbul edib.**

Vitse-prezident Fuat Oktay Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırıb.

Dövlət başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

Söhbət zamanı Şuşa Bəyannaməsinin önəmi vurğulanıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə sonuncu səfəri və həmin səfər çərçivəsində Zəngilan və Cəbrayıl şəhərlərində mühüm obyektlərin açılışlarında iştirakı məmnunluqla qeyd edilib. Rəcəb Tayyib Ərdoğan ilə iki gün əvvəl telefon danışığını xatırladan dövlət başçısı Türkiyənin elektromobil istehsalına başlamasını qardaş ölkə sənayesinin növbəti uğuru kimi dəyərləndirib.

Görüşdə nəqliyyat əlaqələrinin inkişafı baxımından Zəngəzur dəhlizinin əhəmiyyəti qeyd olunub. Azərbaycanın Türkiyə iqtisadiyyatına 20 milyard dollardan artıq investisiya yatırmasının önəmi xüsusi olaraq vurğulanıb, ticarət dövriyyəsinin artdığı, energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. Qaz ixracı məsələsinə toxunularaq Cənub Qaz Dəhlizinin əhəmiyyəti qeyd edilib, bu dəhlizin ixrac imkanlarının genişləndirilməsinin önəmi vurğulanıb.

Görüşdə, eyni zamanda, nəqliyyat və ticarət sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Türkiyənin vitse-prezidentinin Şuşaya planlaşdırılan səfərini alqışladığını bildirib.

## Prezident İlham Əliyev sərəncamlar imzalayıb

### Mayis Bərxudarova general-leytenant, Sübhan Bəkirova isə vitse-admiral rütbəsi verilib





**General-mayor Mayis Şükür oğlu Bərxudarova "general-leytenant" ali hərbi rütbəsi verilib.**

Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Dövlət başçısının digər sərəncamı ilə Kontr-admiral Sübhan Kamal oğlu Bəkirova "vitse-admiral" ali hərbi rütbəsi verilib.

*Qeyd edək ki, M.Bərxudarov Müdafiə Nazirliyinin Ordu birliyinin, S.Bəkirov isə Hərbi Dəniz Qüvvələrinin komandanıdır.*

## Azərbaycan daha bir Beynəlxalq Protokola qoşulub

**Prezident İlham Əliyev "Beynəlxalq yük daşınması müqaviləsi (BYDM) haqqında" Konvensiyaya elektron əmtəə-nəqliyyat qaiməsi ilə bağlı" Əlavə Protokola qoşulmaq barədə qanunu təsdiqləyib.**

Qanuna əsasən, Azərbaycan Respublikası 2008-ci il fevralın 20-də Cenevrə şəhərində imzalanmış "Beynəlxalq yük daşınması müqaviləsi (BYDM) haqqında" Konvensiyaya elektron əmtəə-nəqliyyat qaiməsi ilə bağlı" Əlavə Protokola Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə qoşulur.

## Aİ bəyanat yayıb

### Təşkilat Azərbaycan və Ermənistanın delimitasiya üzrə işləri davam etdirməyə hazırlığını yüksək qiymətləndirir



**Avropa İttifaqı (Aİ) Azərbaycan və Ermənistanın sərhədlə bağlı məsələlərin həlli üzərində işləri davam etdirməyə hazırlığını yüksək qiymətləndirir.**

Trend-in məlumatına görə, bu barədə ötən gün Brüsseldə keçirilmiş danışıqların yekununda Aİ Xarici siyasi xidmətinin bəyanatında deyilir.

"Aİ görüşün keçirildiyi müsbət mühiti və tərəflərin sərhədlə bağlı məsələlərin həlli, eləcə də təhlükəsizlik sahəsində vəziyyətin yaxşılaşdırılması üzərində işləri davam etdirməyə hazırlığını yüksək qiymətləndirir", - bəyanatda deyilir.

*Qeyd olunur ki, bu görüş Azərbaycan Prezidenti İlham Əliyev, Aİ Şurasının prezidenti Şarl Mişel və Ermənistan baş naziri Nikol Paşinyan arasında Brüsseldə keçirilmiş görüş zamanı əldə olunmuş razılaşmalardan sonra başlayıb.*

## Hibrid avtomobillərin idxalı və satışı daha bir il ƏDV-dən azad ediləcək



**Azərbaycanda hibrid avtomobillər daha bir il ƏDV-dən azad ediləcək.**

Bu barədə Azərbaycan Respublikasının 2023-cü ilin dövlət və icmal büdcələri üzrə layihədə qeyd edilib.

Belə ki, sənəddə istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı üzrə ƏDV-dən azad olmanın əlavə bir il artırılması nəzərdə tutulur.

# Şagirdlər arasında skalioz xəstəliyi artıb

## Məktəblərdəki neqativ hallarla bağlı dinləmə keçiriləcək

**Dünən Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib. İclasda çıxış edən deputatlar bir sıra məqamları xatırladıblar. Deputat Tamam Cəfərova deyib ki, məktəblərdə direktor müavinləri öz işlərini layiqincə yerinə yetirə bilmirlər. O qeyd edib ki, 2-3 gün qabaq 5-ci sinif şagirdinə qarşı əxlaqsız hərəkət edən şəxsin məsələsi mətbuatda işıqlandırıldı. Bu məsələ hamını narahat etdi:**

"Uşaqlara qarşı seksual maarifləndirmə ailədən başlamalıdır. Bununla bağlı ilk olaraq maarifləndirmə artırılmalıdır. Əsasən də evdə valideyn artıq uşağın başa düşdüyü yaşda ona cinsi tərbiyəni başa salmalıdır. 5-ci sinifdə oxuyan uşaq bilməlidir ki, tanımadığı bir kişi ilə harasa getmək olmaz, onunla söhbət etmək olmaz. Digər tərəfdən bu gün 1-ci sinifdə oxuyan uşaq da internetdən, telefondan istifadə edir. Uşaqların yaşına uyğun formada cinsi tərbiyə artırılmalıdır. Bu gün internet üzərindən uşaqların seksual istismarı təhlükəsi mövcuddur".



**"Məktəb daxilində baş verən bütün hadisələrə rəhbərlik cavabdehdir"**

**Deputat Kamilə Əliyeva isə qeyd edib ki, bu gün məktəblərdə çalışan təlim-tərbiyə işləri üzrə direktor müavinləri öz işlərini layiqincə yerinə yetirə bilmirlər:** "Onlar sadəcə kabinetlərində oturmaqla işini sənəd işlərini görməklə yekunlaşmış hesab edirlər. Halbuki, direktor müavinləri daim məktəbin dəhlizində olmalı, təhsil müəssisəsinin daxilində baş verən prosesləri izləməlidir. Son zamanlar məktəb daxilində bir sıra xoşagəlməz halların baş verdiyinin şahidi oluruq. Direktor və müavinləri öz vəzifələrinin öhdəsindən layiqincə gəlməlidir. Valideyn övladını məktəbə yola salır və övladı 6-7 saat orada olursa, deməli, məktəb daxilində baş verən bütün hadisələrə məktəb rəhbərliyi cavabdehdir. Başqa bir nüans valideyn adı ilə məktəbə daxil olmaq istəyənlər də olur. Bu kimi xoşagəlməz hadisələrin baş verməməsi üçün məktəb daxilində ciddi nəzarət olmalıdır".

Komitə sədri Bəxtiyar Əliyev isə bildirib ki, işini düzgün qurmayan direktorlar, direktor müavinləri ilə bağlı tədbirlər görülür.

**"Avropada çantalar bu qədər ağır olmur"**

**Deputat Fatma Yıldırım deyib ki, məktəbli çantaları çox ağırdır, şagirdlər arasında skalioz xəstəliyi artıb:** "İbtidai sinif şagirdləri arasında skalioz xəstəliyi artıb. Bu xəstəlik çox çətin müalicə olunur. Uşaqların çantaları çox ağırdır. Avropanın bir sıra məktəblərində orada yaşayan biri olaraq deyə bilərəm ki, ibtidai sinif uşaqları üçün verilən dərsliklər iki nüsxədə çap olunur. Onların çantaları bu qədər ağır olmur. Bu xəstəliyin müalicəsi üçün dövlət səhiyyəyə xüsusi diqqət ayırır. Amma regionlarda sırf bu xəstəliyin müalicəsi üçün reabilitasiya müəssisələri demək olar ki, yoxdur. Çantaların ağır olmağı skalioz xəstəliyini artırır. Biz bu tendensiyanı izləyirik. Valideynlər bizə bu xəstəliyin müalicəsi üçün dəstək istəyir. Regionlarda bu xəstəliyi müalicə edən ixtisaslı kadrlar da yoxdur. Vətəndaşlarımız Bakıya gəlməyə məcbur olur. Buna da bəzilərinin imkanı çatır, bəzilərinin yox".

**"Məktəblərdə baş verən neqativ hallarla bağlı komitədə dinləmə keçirəcəyik"**

**Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev isə bildirib ki, qaldırılan məsələ aktualdır:** "Bununla bağlı təkliflər hazırlayıb bizə təqdim edin. Məktəblərdə baş verən neqativ hallarla bağlı komitədə dinləmə keçirəcəyik. Elm və Təhsil Nazirliyi ilə fikir mübadiləsi aparılacaq. Cəmiyyəti narahat edən məktəblərdəki vəziyyətlə bağlı lazım olarsa, qanunvericiliyi təkmilləşdirəcəyik".

**İsmayıl**

# XİN başçıları Vaşinqtonda müzakirə aparacaq

## Bununla Vaşinqton Moskvaya mesaj göndərir ki, Cənubi Qafqaz artıq Rusiyanın arxa bağçası deyil

**Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə mətbuata mühüm açıqlama verib. O qeyd edib ki, yaxın günlərdə Vaşinqtonda Amerika dövlət katibi Entoni Blinkenin təşəbbüsü və iştirakı ilə Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla erməni həmkarı Ararat Mirzoyan arasında görüşün keçirilməsi planlaşdırılır.**



XİN rəsmisinin sözlərinə görə, Azərbaycan tərəfinin bu kimi görüşlərin keçirilməsi ilə əlaqədar açıqlamanın verilməsinə dair yanaşması ondan ibarətdir ki, bu barədə ilk elan bir qayda olaraq görüşə ev sahibliyi edən ölkə tərəfindən verilməlidir.

Qeyd edək ki, dünən Ermənistan Xarici işlər naziri Ararat Mirzoyan da parlamentdə çıxışı zamanı yaxın günlərdə Vaşinqton şəhərində Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov və Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinken ilə üçtərəfli görüşün keçiriləcəyini deyib.

**ABŞ-ın da bu məsələdə xeyli fəallıq nümayiş etdirdiyini vurğulayan "Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu "Şərq"ə bildirib ki, Vaşinqtonun XİN başçılarının görüşünü öz ərazisində keçirməsi, Soçi sammitinə cavabdır:** "Avropa İttifaqının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə, Brüsseldə Azərbaycanla Ermənistan liderləri arasında 4 görüş keçirilib. Beşincisi isə bu ay planlaşdırılır. Aİ ilə paralel olaraq, ABŞ da bu məsələdə xeyli fəallıq nümayiş etdirir. Sentyabr ayının əvvəlində Azərbaycan və Ermənistan XİN rəhbərləri BMT sammiti çərçivəsində Blinkenin vasitəçiliyi ilə görüşmüşdü.

Bunun nəticəsi olmasa da, fikir mübadiləsi aparıldı. Müzakirələr yenə də davam edəcək. Bununla Vaşinqton Moskvaya mesaj göndərir ki, Cənubi Qafqaz artıq Rusiyanın arxa bağçası deyil. Burada Kremldən əlavə Amerika, Aİ, Türkiyə kimi dövlətlər var.

Rusiya isə Ukrayna bataqlığının içindədir və ətraf bölgələrə nəzarət edə bilmir. Digər tərəfdən Vaşinqtonun XİN başçılarının görüşünü öz ərazisində keçirməsi Soçi sammitinə cavabdır.

Bu o demək deyil ki, ciddi nəticələr olacaq. Ancaq vacib olan danışıqlar prosesində Rusiyanın inhisarının zəifləməsidir. Çünki Rusiya yenə pozuculuqla məşğuldur və separatçılara dəstək verir.

Doğrudur, ABŞ-ın təkliflərinin hamısı da Azərbaycanın maraqları ilə üst-üstə düşmür. Amma diqqətlə baxsaq görərik ki, Amerika və Avropa Cənubi Qafqazdakı münaqişədə maraqlı deyil. Onlar Azərbaycan və Ermənistan arasında real sülh və regional layihələrin işə düşməsini istəyirlər. Bu baxımdan da Vaşinqton görüşünü müsbət qiymətləndirmək olar".

**Nihat Müzəffər**

# General Ermənistanla sərhəddə tapşırıqlar verdi

## Zakir Həsənov dislokasiya olunan hərbi hissələrdə olub



**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən noyabrın 4-də Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Ermənistanla sərhəd bölgəsində dislokasiya olunan hərbi hissələrdə olub.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Yeni istifadəyə verilən yerləşmə məntəqəsində yaradılan şəraitlə tanış olan müdafiə nazirinə məruzə olunub ki, qoşun xidmətinin yüksək səviyyədə təşkili üçün məntəqədə bütün zəruri şərait yaradılıb.

Burada silah otağı, yataqxana, yeməkxana, mətbəx, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı, isitmə sobaları, ərazini fasiləsiz elektrik enerjisi ilə təmin edən generatorlar və günəş panelləri, eləcə də döyüş texnikasının saxlanması üçün park mövcuddur.

Qısa hazırlıq məqsədilə dayaq məntəqələrində və döyüş mövqelərində maye, odun və kömür yanacağı da daxil olmaqla bütün təminat növü ilə ehtiyat yaradılıb.

Şəxsi heyətin məişət şəraiti ilə tanış olduqdan sonra general-polkovnik Z.Həsənov döyüş mövqelərində xidmət edən hərbi qulluqçuların xidməti döyüş fəaliyyəti ilə tanış olub. Müdafiə nazirinə əməliyyat şəraiti ilə bağlı məruzələr edilib. Sərt iqlim şəraitində və kəskin relyefli ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşən nazir onların döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib. Müdafiə naziri döyüş növbətçiliyinin və qoşun xidmətinin təşkili, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı aidiyyəti şəxslərə müvafiq tapşırıqlar verib.

**Sücayət**

# Tələbə təqaüdləri 20 faiz artırılacaq

## Müharibə veteranlarının problemləri də hökumətin qarşısında duran prioritet məsələlərdən biridir

**"Minimum pensiya məbləğinin artırılması daim gündəlikdədir". Bunu Milli Məclisin komitələrinin birgə iclasında "2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib. Nazir bildirib ki, ehtiyac meyarı ilə yaşayış minimumunun bərabərləşdirilməsi qarşımızda duran hədəflərdəndir:**

"Artıq növbəti ilin dövlət büdcəsində buna nail olacağıq. Bunun ardıcıl olaraq təmin olunması qanunvericilik səviyyəsində həll ediləcək. Müvafiq normativ hüquqi aktlar da hazırlanacaq. Düşünürük ki, tədricən biz dövriyyədən ehtiyac meyarı anlayışını çıxaracağıq və fəaliyyət yaşayış minimumu üzərindən qurulacaq. Minimum pensiya məbləğinin artırılmasına gəlincə, bu, həyata keçirilən çoxşaxəli islahat planının tərkib hissəsidir. 2019-cu ildə minimum pensiya məbləği 160 manat idisə, bu gün həmin rəqəm 240 manatdır. Lakin bu məbləğ yeni pensiya alanlar üçündür. Birmənalı olaraq demək istəyirəm ki, minimum pensiya məbləğinin artırılması daim gündəlikdədir. Hökumət bu istiqamətdə ətraflı araşdırmalar aparır, təkliflər hazırlanır".

### Pensiya və müavinətlərə yönəldiləcək vəsaitin həcmi açıqlanıb

**Sahil Babayev deyib ki, əmək pensiyalarının maliyyələşdirilməsinə 5 milyard 907 milyon manat və ya cari ilə nisbətən 650 milyon manat çox, məcburi dövlət sosial sığorta haqqı hesabına verilən müavinətlərə isə 170 milyon manat yönəldiləcək:** "Əmək pensiyalarının orta aylıq məbləği cari ildə 371 manat, yaşa görə əmək pensiyalarının orta məbləği isə 400 manat təşkil edir. Növbəti ildə ümumilikdə əmək pensiyalarının orta aylıq məbləğinin 420 manatın üzərinə çıxacağını proqnozlaşdırırıq".

**Nazir Sahil Babayev deyib ki, müharibə veteranlarına verilən müavinətlərin indeksləşdirilməsi və ya artırılması daimi olaraq Azərbaysan hökumətinin qarşısında duran prioritet məsələlərdən biridir:** "Müharibə əlilləri, şəhid ailələri, müharibə iştirakçılarına dəstək verilir. Bununla bağlı müavinət 2019-cu ildə təxminən 40 faiz artırılıb və indiki məbləğə bərabər oldu. Ötən dövr ərzində 21 min müharibə iştirakçısı və 8800 əlili özünəməşğulluq proqramına cəlb olunub. 7000-i isə məşğulluq marafonu və müxtəlif alətlər vasitəsilə işlə təmin olunub. Tələbə təqaüdləri isə gələn ildən etibarən orta hesabla 20 faiz artırılacaq".



### "Təxminən söhbət 40 min nəfərdən gedir"

**Maliyyə naziri Samir Şərifov gəlir vergisinin yuxarı həddinin 5000 manata qaldırılması təklifinə münasibət bildirib. O deyib ki, bunun geniş kütləyə şamil edilməsi üçün ilk növbədə maliyyə tərəfi hesablanmalıdır:** "İlkin hesablamalarımıza görə, bu təklifin edilməsi dövlət büdcəsində 150 mln. manat itki ilə nəticələnəcək. Təxminən söhbət 40 min nəfərdən gedir. Gərək bunu dəyərləndirək". Qeyd edək ki, parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev gəlir vergisinin yuxarı həddinin 2500 manatdan 5000 manata qədər artırılmasını təklif edib.

**Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib ki, növbəti ildə dövlət büdcəsinin gəlirləri 2022-ci ilin yenidən baxılmış göstəricisinə nisbətən artımla proqnozlaşdırılıb.** O qeyd edib ki, artımın əsas səbəblərindən biri, cari ildə olduğu kimi hüquqi şəxslərin mənfəət vergisi ilə əlaqəli olub, 2022-2023-cü illərdə bu vergi növü üzrə əsasən neft-qaz sektorunda olmaqla əhəmiyyətli artımın nəzərdə tutulması cəmi vergi daxilolmalarında birbaşa və dolayı vergilərin xüsusi çəkilərinin dəyişməsi ilə nəticələnib: "Dövlət büdcəsinin qeyri-neft gəlirlərinin məbləği cari ilin proqnozuna nisbətən artımla nəzərdə tutulub. Büdcə-vergi siyasətində gəlir inzibatçılığının gücləndirilməsi ilə bağlı bəyan edilən hədəfləri diqqətə alaraq "Büdcə zərfi"nə daxil edilmiş göstəricilərə əsaslanmaqla Hesablama Palatası vergi və gömrük orqanları üzrə gəlirlərin toplanmasına əlverişli şəraitin yaranacağı və bəzi tədiyə növləri üzrə potensialın olduğu qənaətindədir. Hesab edirik ki, buna növbəti il üçün proqnozlaşdırılmış inflyasiya, iqtisadi artım amili, təbii resursların gözlənilən qiymətlərinin daha çox olması, həmçinin ticarət tərəfdaşlarında qiymət artımlarının sürətlənməsi də təsir edəcək".

### "Bəzi faktorlar büdcə layihəsinin Strategiyaya uyğunluğunun qiymətləndirilməsinə təsir edib"

**V.Gülməmmədov deyib ki, Hesablama Palatası olaraq dövlət büdcəsinin layihəsinin və birlikdə təqdim edilən sənədlərin Strategiyaya uyğunluğunu qiymətləndirməyə çalışıb:** "Bəzi faktorlar büdcə layihəsinin Strategiyaya uyğunluğunun qiymətləndirilməsinə təsir edib. Bununla belə, təqdim edilmiş məlumatların analitik prosedurlarla araşdırılması Strategiyanın tədbirlərinin proqnozlarda nəzərə alınması ilə bağlı 2 əsas nəticəyə gəlməyə imkan verir. Birincisi, Strategiyanın tədbirlərinin bir hissəsində əks etdirilən məsələlər makrofiskal göstəricilərin proqnozlarında tam və ya qismən nəzərə alınıb. İkincisi, "Büdcə zərfi"ndə izahedici məlumatların az olması fonunda Strategiyanın tədbirlərinin bir hissəsində əks etdirilən məsələlər fiskal göstəricilərin proqnozlarında önə çıxmayıb, tədbirlərin proqnozlarda nəzərə alınıb-alınmaması ilə bağlı konkret qənaətə gəlmək mümkün olmasa da, dövlət büdcəsinin aidiyyəti xərc istiqamətlərində artım nəzərdə tutulub".

**İsmayıl**

# ABŞ tərəfləri daha çox sülhə yaxınlaşdırır

## Fransa və Rusiyanın pozucu addımlarını görəcəyik



“Yaxın aylarda Vaşinqtonun və Brüsselin vasitəçiliyi ilə irəliləyişin əldə edilməsi gözlənilir”

**Brüssel şəhərində Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların üçüncü görüşü keçirilib. Tərəflər müxtəlif formatlarda əldə edilən razılaşmaları nəzərə alaraq, delimitasiya məsələlərinin müzakirəsinə davam edib, təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər.**

Həmçinin, komissiyaların birgə fəaliyyət qaydasının razılaşdırılması üzrə işi sürətləndirmək barədə razılığa gəlinib. Tərəflər komissiyaların dördüncü iclasının keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etməyi də planlaşdırıblar. Eyni zamanda Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib ki, yaxın günlərdə Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinkenin təşəbbüsü və iştirakı ilə Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovla erməni həmkarı Ararat Mirzoyan arasında görüşün keçirilməsi planlaşdırılır. Onun sözlərinə görə, Azərbaycan tərəfinin bu kimi görüşlərin keçirilməsi ilə əlaqədar açıqlamanın verilməsinə dair yanaşması ondan ibarətdir ki, bu barədə ilk elan bir qayda olaraq görüşə ev sahibliyi edən ölkə tərəfindən verilməlidir.

**Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə bildirib ki, Vaşinqtonun, xüsusən Brüsselin Azərbaycan-Ermənistan sülh sazişinin imzalanması üçün vasitəçilik etməsi, işçi qrupların görüşü, XİN rəhbərlərinin gözlənilən görüşü real nəticələr verə bilər.** Analitikə görə, ABŞ və Brüsselin də məqsədi sülh prosesinin irəliyə doğru getməsi, müəyyən nəticələrin əldə olunmasıdır: ”Əslində Qərbin digər məqsədi Rusiyanı Cənubi Qafqazdan uzaqlaşdırmaqdır. İndiki halda Moskvanın da Qərbə direniş göstərəcək gücü və imkanları məhduddur. Kreml cəhd edirdi ki, Soçi görüşündə Ermənistan rəhbərliyinin absurd təkliflərini də yekun bəyanatın bəndlərinə salsın. Amma Azərbaycan Prezidentinin prinsipial mövqeyi buna imkan vermədi. Nəinki İrəvanın, heç Rusiyadakı müəyyən dairələrin təklifləri də nəzərə alınmadı. İlin sonuna kimi müsbət nəticə olmasa da, yaxın aylarda Vaşinqtonun və Brüsselin vasitəçiliyi ilə irəliləyişin əldə edilməsi gözlənilir. Proses boyu Ermənistanın sərhəd təxribatları da baş verə bilər. Həmçinin, Fransanın və Rusiyanın da pozucu addımlarını görəcəyik. Bunlar prosesi bir qədər uzada, sülhü ləngidə bilər, amma ən sonda nəticə rəsmi Bakının istədiyi kimi olacaq”.

**İsmayıl Qocayev**

# Ermənistanla sərt dildə danışmaq lazımdır

## Tofiq Zülfüqarov: “Brüsseldə delimitasiya və demarkasiyanı müzakirə etmək məntiqdən uzaqdır”



**Noyabrın 3-ü 2022-ci il tarixində Brüsseldə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və erməni həmkarı Mher Qriqoryan görüşüblər.**

Onlar Azərbaycan-Ermənistan dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələlərini müzakirə ediblər. Təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər. Komissiyaların birgə fəaliyyətinin hüquqi çərçivələrini müəyyən etmək məqsədilə, tərəflər birgə fəaliyyət qaydasının razılaşdırılması üzrə işi sürətləndirmək barədə razılığa gəliblər.

**Görüşü “Şərq”ə dəyərləndirən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov vurğulayıb ki, bizimlə sərhədlərin delimitasiyası məsələsini müzakirə edən ölkənin prezidentinin qanunsuz olaraq Azərbaycan ərazisinə gəlməsi və maraqlarımıza zidd bəyanatlar yayması onların prosesin həllində nə qədər maraqlı olduqlarını göstərir:** ”Ermənistan, Azərbaycanla beynəlxalq qanunlara uyğun münasibət qurmaq  istədiyinin görüntüsünü yaymağa çalışır. Amma bilir ki, əslində belə deyil. Çünki onlar mütəmadi şəkildə ölkəmizin daxilindəki məsələlərə müdaxilə edir, dövlət büdcəsi ilə qondarma qurumları maliyyələşdirir və yaraqlıları silahlandıraraq Qarabağda saxlayır.

Ümumiyyətlə, bu təxribatlar və addımlar Ermənistanın siyasətinin göstəricisidir. Bunun fonunda da Brüsseldə delimitasiya və demarkasiya müzakirəsi aparmaq məntiqdən uzaq bir addımdır. Çünki Ermənistanın məlum əməlləri qəbuledilməzdir. Burada danışıqlar yox, daha ciddi addımlar atmaq lazımdır.

Həm əsgərlərimizə qarşı atəş açılmaması, həm də siyasi təxribatların olmaması üçün Azərbaycan tərəfindən ciddi cavablar verilməlidir”.

**Nihat**



# Toqquşma və iğtişaş təhlükəsi gözlənilir

## ABŞ səfirliyi Ermənistandakı həmvətənlərinə xəbərdarlıq edib

**ABŞ-ın Ermənistandakı səfirliyi vətəndaşlarına müxalifət hərəkatının paytaxt İrəvanda noyabrın 5-də keçirəcəyi mitinqdə iştirak etməmək barədə xəbərdarlıq edib.**

”Report” bu barədə ”Sputnik-Armenia”ya istinadən xəbər verir.

Məlumata görə, xəbərdarlığa səbəb toqquşma və iğtişaşlar təhlükəsidir.

Səfirlik bildirir ki, nümayişlər gözlənilməz ola bilər.

”Hətta dinc xarakter daşıyan nümayişlər qarşıdurmaya və zorakı hərəkətlərə çevrilə bilər. Ərazidən qaçın, yeniliklər barədə yerli medianı yoxlayın, izdihamdan və nümayişlərdən qaçın. Dostlarınızı və ailənizi xəbərdar edin”, - diplomatik nümayəndəlikdən bildiriblər.

*Xatırladaq ki, noyabrın 5-də müxalifət Fransa meydanında mitinq keçirəcək.*

# İrana tarixi dərs veriləcək

## Cənubi Azərbaycan Cümhuriyyəti məsələsi gündəmdədir

**Son zamanlarda İranın Azərbaycana qarşı qərəzli mövqeyi və təhdidləri daha da şiddətlənib. Bu ölkə Azərbaycanı sözdə din qardaşı və qonşu adlandırır, əməldə isə minbir fitnə törədirlər.**

Cənub sərhədlərimizdə təlimlərin keçirilməsi, Qafanda konsulluğun açılması və güneyli soydaşlarımızın hüquqlarının pozularaq təqiblərə məruz qalması bunun ən bariz nümunəsidir. Digər tərəfdən İran dövlət televiziyaları və ayrı-ayrı siyasi fəallar Azərbaycana hücum edilməsini və Naxçıvanın işğalını təklif edir. Ortada sual yaranır ki, bizə qarşı bu qədər düşmənçilik bəsləyən cənub qonşumuza qarşı, niyə ”Cənubi Azərbaycan Cümhuriyyəti” məsələsini irəli sürmürük. Axı bizim orada doğmalarıyla qovuşmağı gözləyən 40 milyon soydaşımız var.



**Məsələni ”Şərq”ə dəyərləndirən Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev bildirib ki, rəhbərlik etdiyi partiya Cənubi Azərbaycan Cümhuriyyəti məsələsini uzun illərdir gündəmdə saxlayır:** ”Bizim Güney Azərbaycan departamentimiz var.  Onlar 20 ildir ki, bu məsələ ilə məşğuldurlar. Digər tərəfdən 1991-ci ildə Azərbaycan müstəqillik aktını qəbul edəndə mən təklif etdim ki, ölkəmizin adı Şimali Azərbaycan olsun və cənub hissəmiz bilinsin. Parlamentdə 2010-cu ildəki çıxışım zamanı ”Türkmənçay” müqaviləsinin qüvvədən düşməsini tanımağımız barəsində məsələ qaldırdım. İranın davranışlarına isə mütəmadi şəkildə reaksiya bildiririk.

Partiyaların əksəriyyəti münasibət bildirmir və siz onları qınamaqda haqlısız. Lakin jurnalistlər də bu məsələni ciddi şəkildə gündəmdə saxlamalıdır. Düzdür, ”Şərq” kimi  bir neçə milliyətçi nəşr olan media qurumları məsələyə toxunur. Amma bu, kifayət deyil. Gərək bütün qəzetlər, saytlar və media resursları mövzunu gündəmdə saxlasın. Bunu isə İranın davranışına görə yox, bizim təbii haqqımız olduğu üçün etməliyik. Bizim üçün əzəli status-kvo öz tarixi torpaqlarımızda birləşmiş Azərbaycandır.

Bunu gizlətmək olmaz. Milli hədəfi gizlətməzlər. Ona görə də bu məsələ mütəmadi olaraq qaldırılmalı və Güney Azərbaycana hər cür dəstək göstərilməlidir”.

**Nihat Müzəffər**

# Regional medianın inkişafı diqqət mərkəzindədir

## Şimal bölgəsində müzakirələr aparılıb





**Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə regional medianın inkişafına dair müzakirələrin aparılması məqsədilə Quba şəhərində şimal bölgəsində fəaliyyət göstərən media nümayəndələri ilə görüş keçirilib.**

**"Şərq" xəbər verir ki, görüşdə Mətbuat Şurası, Audiovizual Şura və UNEC Tədqiqat Fondu da təmsil olunub.**

Görüşün məqsədi regional medianın inkişafı istiqamətində effektiv və zəruri addımların atılması, bu mövzuda həllyönümlü müzakirələrin aparılması, regional mediada sahə yeniliklərinin təbliğinin sürətləndirilməsi və bu prosesdə peşəkar kadrların yaxından iştirakının təmin edilməsidir.

Zəfər günü ərəfəsində baş tutan görüşdən əvvəl tədbir iştirakçıları Qubada ulu öndər Heydər Əliyevin abidəsi və "Media şəhidləri" parkını ziyarət ediblər.

Görüşün əvvəlində dövlət himni səsləndirilib, ümummilli liderin və Vətən müharibəsi şəhidlərinin xatirələri 1 dəqiqəlik sükutla yad edilib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov açılış nitqində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış qələbənin ölkə mediasının fəaliyyətində böyük ruh yüksəkliyi yaratdığını vurğulayıb, region mediasının kadr potensialının gücləndirilməsinə töhfə verilməsi, media nümayəndələrinin fərdi və peşəkar inkişafının təmin edilməsi məqsədilə müxtəlif layihələrin icrasının zəruriliyini qeyd edib.

Mətbuat Şurasının sədri Rəşad Məcid regional medianın inkişafı istiqamətində MEDİA-nın və MŞ-nin birgə fəaliyyətinin əhəmiyyətini qeyd edib, region mediasında yeniliklərin tətbiqi məqsədilə atılan addımların ümumilikdə ölkə mediasının inkişafına müsbət təsir göstərəcəyini bildirib.

Görüş regional medianın texniki infrastrukturunun gücləndirilməsi, kadr peşəkarlığının və iqtisadi müstəqilliyinin artırılması mövzusunda müzakirələrlə davam edib.

Daha sonra, görüş çərçivəsində MEDİA-nın nümayəndəsi Pərvanə İbrahimova və Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti Vəfa İsgəndərovanın təqdimatında region gənclərinin iştirakı ilə "Media savadlılığı" mövzusunda təlim baş tutub.

Təlimdə regionlarda media savadlılığı ilə bağlı vəziyyətin müəyyənləşdirilməsi, bu istiqamətdə müxtəlif tədbirlərin təşkili ilə əlaqədar fikir mübadiləsi aparılıb.

**Aygün**

## İranda etirazçılarla polis arasında atışma olub, yaralananlar var

**Etirazçılar İranın Sistan və Bəlucistan vilayətində Xaş şəhər qubernatorluğuna daş və silahla hücum ediblər.**

APA-nın Tehran bürosunun məlumatına görə, dünən cümə namazından sonra Xaş şəhərində bir sıra etirazçılar şəhər qubernatorluğuna hücum edib.

Etirazçılar ilk öncə hökumət əleyhinə şüarlar səsləndirib və daha sonra binanı daşa basıb və binaya atəş açıblar.

Polis və etirazçılar arasında atışma baş verib, bir neçə nəfər yaralanıb.

Etirazçılar, həmçinin bir neçə avtomobili, bankları və ictimai obyektləri yandırıblar.

## Naxçıvan üzərindən Türkiyəyə dəmiryolu xətti çəkiləcək



**Azərbaycanın əsas hissəsi ilə Türkiyə arasında Naxçıvan vasitəsilə birbaşa dəmir yolu əlaqəsinin təmin edilməsi baxımından Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu layihəsinin reallaşdırılması mühüm əhəmiyyət kəsb edir.**

"Report" xəbər verir ki, bu barədə bu gün Bakıda keçirilən Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 10-cu iclasında deyilib.

Zəngəzur dəhlizinin açılması və Naxçıvana dəmir yolunun çəkilməsi nəticəsində Azərbaycan-Türkiyə iqtisadi-ticari əlaqələrinin genişlənəcəyinə əminlik ifadə olunub. Eyni zamanda, yeni yaranmış reallıqlar fonunda nəqliyyat kommunikasiyalarının açılmasının əməkdaşlıq üçün yaxşı imkanlar vəd etdiyi qeyd edilib, Zəngəzur dəhlizinin açılmasının regional əməkdaşlığı daha da gücləndirəcəyinə, bölgə ölkələrinin iqtisadi tərəqqisinə xidmət edəcəyinə əminlik ifadə olunub.

İclasda Azərbaycanla Türkiyə arasında nəqliyyat sahəsində əməkdaşlığın inkişafı yüksək qiymətləndirilərək cari ilin 9 ayında iki ölkə arasında ümumi daşınmış yüklərin həcminin 60,2 % artdığı, o cümlədən tranzit yüklərin həcminin 96,3 % çox olduğu bildirilib.

*Qeyd edək ki, Hökumətlərarası Komissiyanın həmsədrləri Azərbaycanın Baş naziri Əli Əsədov və Türkiyənin vitse-prezidenti Fuat Oktaydır.*

# "Azərbaycanda iki partiya olsa, bəsdir"

## Novella Cəfəroğlu deyib ki, digər partiyalar da təhsil, səhiyyə ilə məşğul olsunlar, birləşsinlər



**Dünən Milli Məclisin təşkilatçılığı ilə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi ilə bağlı növbəti ictimai dinləmə təşkil olunub. Dinləmədə Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Oruc, parlamentdə təmsil olunan partiyaların nümayəndələri, deputatlar və QHT rəhbərləri iştirak ediblər.**

Tədbirdə Sosial Tədqiqatlar Mərkəzinin bu sahədə apardığı tədqiqatların nəticələri açıqlanıb. Rəyi öyrənilənlərin 90,2 faizi hesab edir ki, partiyalara maliyyə yardımlarına Hesablama Palatası vasitəsi ilə dövlət nəzarəti təmin edilməlidir. Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli müzakirələrin məqsədinin qanun layihəsinin təkmilləşdirilməsi olduğunu vurğulayıb.

**"Kəskin mövqedən çıxış edənlər sonda bunu görəcəklər"**

**Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Oruc bildirib ki, müvafiq təkliflər də nəzərə alınmaqla yekunda "Siyasi partiyalar haqqında" yeni mükəmməl bir qanun qəbul olunacaq:** "Bu qanun layihəsi ilə bağlı kəskin mövqedən çıxış edənlər də sonda bunu görəcəklər". Zahid Oruc ilkin ictimai dinləmə zamanı Gələcək Azərbaycan Partiyası və Ağ Partiyaların partiya sədrlərinə toxunulmazlıq və diplomatik pasportların verilməsi təklifi ilə çıxış etdiklərini xatırladıb: "Hətta bu təkliflər məqbul sayılsaydı belə, bu məsələ bu qanunun predmeti deyil".

**"Yevlaxda kiminsə qohum-əqrəbanı başına yığıb partiya yaratması anormal hal olar"**

**Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Hikmət Babaoğlu qeyd edib ki, siyasi sistemimizin məhəlliləşdirilməsinə yol vermək olmaz və qanun da bu məqsədə xidmət edir:** "Tutaq ki, Yevlaxda kiminsə qohum-əqrəbasını başına yığıb partiya yaratması anormal hal olardı". Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı qanun layihəsində partiyalar üçün üzv tələbinin min nəfərdən 10 min nəfərə çatdırılmasına normal yanaşdığını söyləyib: "Çünki kimsə min nəfər qohum-əqrəbasını yığıb bir partiya yarada bilər. Bu da anormal haldır".

Vəhdət Partiyasının sədri Tahir Kərimli STM-nin sorğusunda qadınların partiya sədri seçilməsi ilə bağlı məqama toxunub: "Guya kimsə qadını sədr seçəcəksə, biz bunun əleyhinə olacağıq? Seçilsinlər, kim nə deyir!".

**"Yaradılan partiyaların sədrləri psixoloji yoxlamadan keçirilməlidir"**

**Deputat, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə bildirib ki, bəşəriyyəti fəlakətlərlə üz-üzə qoyan Adolf Hitler kimi şəxslərin sonradan psixoloji xəstəlikləri olduğu məlum olub:** "Ona görə də "Siyasi partiyalar haqqında" qanun layihəsində bu barədə maddənin əksini tapması vacibdir".

**"Azərbaycanda 4 mindən çox QHT var"**

**Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu hesab edir ki, Azərbaycanda iki partiya olsa, bəsdir:**

"ABŞ da çoxlu partiya var, ancaq seçkilərdə hakimiyyət uğrunda iki partiya mübarizə aparır. Azərbaycanda da əsas iki partiya olmasını istəyərdim". Novella Cəfəroğlu deyib ki, Azərbaycanda digər partiyalar da təhsil, səhiyyə ilə məşğul olsunlar, birləşsinlər. O, bu gün Azərbaycanda 4 mindən çox QHT olduğunu da xatırladıb: "Ancaq onların da əksəriyyətinin yalnız bir "papka"sı var".

**İsmayıl Qocayev**

# Araz boyu gələcək təhlükələrə hazırıq

## Xüsusi təyinatlıların sərhəddə təlimi İrana layiqli cavab oldu



**Bir neçə gündür Azərbaycan Respublikasının cənub sərhədlərinə yaxın ərazilərdə Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təlimi başlayıb. Təlimlər hər nə qədər müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən aparılsa da, aydın məsələdir ki, rəsmi Bakı İrana açıq gözdağı verir.**

Məsələ ondadır ki, İran son zamanlar Azərbaycanı açıq şəkildə hədələyir. İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) quru qoşunları İranın şimal-qərb hissəsində, Azərbaycanla sərhəddə, Araz çayı boyunca "Qüdrətli İran" adlandırdığı təlimlər keçirməsi də bunu bir daha təsdiqlədi. Araz çayı üzərində körpünün inşa edilməsini məşq etmək isə açıqca hədə-qorxu gəlməkdir.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, rəsmi Bakının İranın təlim şantajına cavab verəcəyi bəlli idi. Lakin veriləcək cavab da ən azından İranın verdiyi mesaj qədər təsirli və adekvat olmalı idi:** "Cənub sərhədlərinə yaxın ərazilərdə Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təlimə başlaması İrana layiqli cavab oldu. Təlimlərin diqqətçəkən başlıca məqamları isə şübhəsiz bunlardır. Birincisi, təlimlərə Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələri cəlb edilib. Həmin XTQ ki, cəmi iki il öncə 27 illik işğalın sonlandırılmasında ən çətin, icrası mümkün hesab edilməyən missiyaların öhdəsindən gəldi. Təkcə Şuşa əməliyyatları XTQ-nin gücünü dünyaya göstərdi. Rəsmi Bakı indi XTQ-ni hərbi təlimlərə cəlb edərək İrana qalib ordunun bütün istiqamətlərdən, həmçinin Araz çayı boyunca gələcək hücumlara qarşı hazır olduğu mesajını verir. İkincisi, təlimlər Xüsusi Təyinatlı Qüvvələrin komandanı, general-leytenant Hikmət Mirzəyevin rəhbərliyi ilə baş tutur. Hikmət Mirzəyevin adı təkcə ermənilər üçün deyil, həmçinin İran üçün ciddi narahatlıq yaradır. XTQ onun komandanlığında kifayət qədər çətin tapşırıqlar yerinə yetirib. Hikmət Mirzəyev hazırda Azərbaycan Silahlı Qüvvələrinin ən təcrübəli və istedadlı zabitlərindəndir".

**Ekspertə görə, təlimlərin ən diqqətçəkən məqamı təlimləri Türkiyə Quru Qoşunlarının əməliyyat üzrə rəisi, general-mayor Bəxtiyar Ersayın da izləməsi idi:** "Bəxtiyar Ersayın təlimləri izləməsi faktiki olaraq Türkiyənin İrana verdiyi açıq və net mesajıdır. Yəni "Türkiyə Azərbaycanın yanındadır və İran həddini aşmamalıdır. Nəticə etibarilə rəsmi Bakı bir daha təlimlər ilə göstərmiş oldu ki, heç kəs bizimlə hədə, diktə ritorikası ilə danışa bilməz. Azərbaycan 90-cı illərdəki zəif ölkə deyil. Azərbaycan Silahlı Qüvvələri istənilən ölkədən gələcək təhdidlərə, hücumlara hər zaman hazırdır".

**İsmayıl Qocayev**

# Partiya sədrləri yox, deputatlar psixoloji yoxlamadan keçirilsin!

## Funksionerlər Asim Mollazadənin təklifini qeyri-ciddi adlandırıblar

**Millət vəkili, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə maraqlı təkliflə çıxış edib. "Siyasi partiyalar haqqında" qanun layihəsinin Milli Məclisdə müzakirəsi zamanı çıxış edən deputat deyib ki, yaradılan partiyaların sədrləri psixoloji yoxlamadan keçirilməlidir. A.Mollazadə bildirib ki, bəşəriyyəti fəlakətlərlə üz-üzə qoyan Adolf Hitler kimi şəxslərin sonradan psixoloji xəstəlikləri olduğu məlum olub:**

"Ona görə də "Siyasi partiyalar haqqında" qanun layihəsində bu barədə maddənin əksini tapması vacibdir".

**AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli "Şərq"ə açıqlamasında deputatın təklifini qeyri-ciddi adlandırıb. Partiya təmsilçisi vurğulayıb ki, deputat daha məsuliyyətli postdur və seçki vasitəsi ilə parlamentə seçilir:** "Yaxşı olardı ki, Asim Mollazadə bu təklifi deputatlar üçün edərdi. İlk növbədə deputatların psixoloji vəziyyəti yoxlanılsın. Yaxud təklif edərdi ki, nazirlər vəzifəyə təyinat alarkən yoxlamadan keçsinlər. Siyasi partiya rəhbərləri üçün belə bir tələb məntiqsiz və mənasızdır. Onsuz da mövcud qanunvericilikdə psixoloji problemləri olan şəxslər siyasi partiyaya rəhbərlik edə bilməzlər. Deputatlar öz işləri ilə





məşğul olsalar, daha yaxşı olar. Məntiqsiz təkliflərlə gündəmə gəlməyə çalışmasınlar".

**Azərbaycan Milli İstiqlal Partiyasının rəsmisi Əli Oruclu "Şərq"ə bildirib ki, "Siyasi partiyalar haqqında qanunun yeni lahiyəsinin parlamentdə müzakirəsi və dinləmələr keçirilməsi müsbət addımdır. Lakin Ə.Oruclunun sözlərinə görə, bəzi statistik məsələlərdə hökumət güzəştlər etsə də, bir sıra vacib mövzularda təklif və iradlar diqqətə alınmayıb:** "Açığı, güzəşt edilən maddələrdə də ciddi güzəşt yoxdur. Aktual məsələ partiyaların maliyyələşməsi, partiyalara inzibatı nəzarət və təzyiqlərə imkan verəcək halların açıq qalmasıdır. Söhbət ondan gedir ki, bütün partiyaların istisnasız büdcədən maliyyələşməsi mexanizmi tapılmalıdır. Digər məsələ partiya üzvlərinin şəxsi anket məlumatlarının reyestrə daxil edilməsinin məcburiliyidir. Şəxsi indenfikasiya məlumatlarının tələb edilməsi yolverilməzdir. Bu, siyasi partiyalara və üzvlərinə basqı imkanı yaradır. Başqa vacib məqam qeydiyyatdan keçən partiyaların yeni qanunun qəbulundan sonra yenidən qeydiyyatdan keçməsi tələbidir. Bu da konstitusiyamıza ziddir. Qanunun geriyə qüvvəsi yoxdur. Bu qədər vacib problemlər qala-qala partiya sədrlərinin psixoloji yoxlamadan keçməsi təklifi qeyriciddidir. Mən Asim Mollazadənin analogiyasını qüsurlu hesab edirəm. Adolf Hitlerdən əvvəl dünya tarixə Birinci dünya müharibəsi kimi düşən dörd illik müharibə aparmışdı. Asim Mollazadə bilməmiş olmaz ki, hər iki cahan savaşının başlanmasının əsl səbəbi şəxslər deyil, böyük güclərin dünyanı yenidən bölüşdürməsi və nüfuz uğrunda mübarizə idi. Mən "Siyasi partiyalar haqqında" yeni qanunun müzakirəsi zamanı Asim bəydən ciddi və rasional təkliflər gözləyərdim".

**İsmayıl Qocayev**

# Fazil Məmmədovun cənazəsi Azərbaycana gətirilib



**Türkiyədə vəfat edən Azərbaycanın keçmiş vergilər naziri Fazil Məmmədovun cənazəsi Bakıya gətirilib.**

Bu barədə "Report"a onun ailəsindən məlumat verilib.

Bildirilib ki, sabiq nazirin cənazəsi yaşadığı evə aparılıb.

F.Məmmədov noyabrın 5-də Yasamal qəbiristanlığında torpağa tapşırılacaq.

*Qeyd edək ki, F.Məmmədov ötən gecə Türkiyədə müalicə olunduğu xəstəxanada dünyasını dəyişib. Onun ürək çatışmazlığından vəfat etdiyi bildirilib.*

*Xatırladaq ki, F.Məmmədov 1964-cü ildə anadan olub. O, 2000-2017-ci illərdə vergilər naziri vəzifəsində çalışıb.*

# AXCP-nin piket keçirməsinə razılıq verilməyib



**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) noyabrın 11-də BŞİH inzibati binasının qarşısında piketin keçirilməsi barədə müraciətinə cavab verib.**

APA-nın xəbərinə görə, AXCP-yə BŞİH qarşısında aksiya keçirməsinə razılıq verilməyib.

Qeyd edilib ki, piket keçirmək üçün qeyd edilən ərazi təhsil müəssisələrinin, həmçinin əhalinin daha sıx fəaliyyətdə olduğu metro çıxışı, nəqliyyat vasitələrinin intensiv hərəkət etdiyi yol yaxınlığında olduğundan həmin yerdə piketin keçirilməsi toplantıda iştirak etməyən digər insanların sərbəst hərəkətinə, təhlükəsizliyin təmin edilməsində ciddi çətinliklərin yaranmasına səbəb olacaq.

Buna görə də piketin keçirilməsi məqsədəuyğun sayılmayıb.

# ABŞ Ukraynaya 400 milyon dollarlıq əlavə hərbi yardım edir



**ABŞ Ukraynaya 400 milyon dollarlıq əlavə hərbi yardım edir.**

"Report" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Pentaqon məlumat yayıb.

Yeni hərbi yardım paketinə 45 T-72 tankı, 250 M1117 zirehli transportyoru, 40 zirehli qayıq, 1100 "Phoenix Ghost" pilotsuz uçan aparatı daxildir.

# Xersonda 24 saatlıq rejimdə komendant saatı tətbiq edilib



**Rusiya Xersonda 24 saatlıq rejimdə komendant saatı tətbiq edib.**

APA "Reuters"ə istinadən xəbər verir ki, bu barədə şəhərin Rusiya tərəfindən təyin edilən mer müavini Kirill Stremousov "Teleqram" kanalındakı paylaşımda bildirib.

O, komendant saatının tətbiqinin Xerson şəhərinin terror hücumlarından müdafiəsi üçün zəruri olduğunu qeyd edib.

Stremousov daha əvvəlki çağırışlarında Ukrayna texnikalarından ibarət kolonların cəbhəyə yaxınlaşdığını və bunun mümkün hücum ola biləcəyini deyərək mülki şəxsləri Xersonu tərk etməyə çağırıb.

# Məmurlar vəzifələrindən sui-istifadə edirlər

## Deputat deyib ki, həbslər göstərir ki, büdcənin idarə edilməsi üçün nəzarət mexanizmi güclü deyil



**"Bu gün Azərbaycanda dərmanlar hədsiz dərəcədə bahadır". Bunu 2023-cü ilin dövlət büdcəsinin Milli Məclisin müvafiq komitələrində müzakirəsi zamanı çıxış edən deputat Məlahət İbrahimqızı deyib. Deputat bildirib ki, apteklərdə hətta ucuz dərmanların qıtlığı yaşanır:**

"Dərmanların idxal rüsumu və əlavə dəyər vergisi (ƏDV) azaldılmalıdır. Azərbaycanda işsizliyə görə verilən müavinətə də yenidən baxılsa yaxşı olar. Bir çox ölkələrdə bu, minimum əmək haqqının 70-80 faizi həcmində götürülür".

**Deputat Siyavuş Novruzov bildirib ki, örüş yerlərini yaşayış yeri və ya əkin yeri etdilər:** "Örüş yerlərinin uzaq olması da fermerlərin növbəti problemidir. İşğaldan azad edilmiş yerlərdə örüş yerləri olsa da minalardan nə vaxt təmizlənməsi işləri yubadır. Hesab edirəm ki, fermerlərə verilən subsidiyaların məbləği artırılmalı, kredit çox aşağı faizlə, hətta faizsiz verilməlidir. Bununla da onlara dəstək olmaq lazımdır".

**Siyavuş Novruzov deyib ki, Ermənistan həm İran, həm də Hindistandan silah alınmasını razılaşdırıb:** "Hesab edirəm ki, bu da Azərbaycan və Türkiyəyə tuşlanıb. Gələn ilin büdcəsində hərbi xərclərin artırılmasını dəstəkləyirəm. Hesab edirəm ki, dövlət büdcəsində bu addımların atılması hər kəsin ürəyincədir. Lakin ayrılan vəsaitdən hərbçilərin ailələrinə, onların yaşayış, ezamiyyət tariflərinə də təsir etsə, yaxşı olar. Nəzərə alaq ki, dünən 50 manata kirayə qalırdınsa, bu gün 100 manata qalırsan. Üstəlik, internet xərcləri və digər xərclər var".

**Parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, bu gün kənd təsərrüfatı məhsullarının qiymətləri artmaqdadır:** "İnhisarçılıq öz sözünü deyir. Regionlarla müqayisədə Bakıda kənd təsərrüfatı məhsullarının qiyməti 5 dəfə yuxarıdır. Maliyyə orqanları bu sahədə fikirləşməlidir, çünki qiymətlərin bahalaşması həm sahibkarlara ziyandır, həm də insanların rifahını aşağı salır".

**Tahir Rzayev bildirib ki, son zamanlar vəzifəli şəxslərin, nazir müavinlərinin tutulması vəzifədən sui-istifadə hallarının artdığını göstərir.** Komitə sədrinin sözlərinə görə, həbslər göstərir ki, büdcənin idarə edilməsi üçün nəzarət mexanizmi güclü deyil: "Ona görə də bununla bağlı nəzarət mexanizmi gücləndirilməlidir".

**İsmayıl**



# Ölkədə təlatümlər tüğyan edir

## Etirazçıların molla rejiminə qarşı sərt mövqeyi Tehranı sarsıdır

**"İranın xarici siyasətinin istiqamətləri "islam dünyasını parçala və hökm sür" prinsiplərini özündə ehtiva edir. Hərçənd ki, molla rejimi bunu pərdələmək üçün gah təhlükəsizlik mühitini, gah da müsəlman hüquqlarının qorunmasının adı altındakı fəaliyyətini bəhanə gətirir".**

*Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, İran əsrlər boyu müsəlman coğrafiyasında davam edən sünni-şiə rəqabətini siyasi motivlərlə alovlandırır:* "Dini müzakirələri mədəni mübahisə kontekstindən çıxarmağa can atır. İran islam dünyasında əsasını dərin dini mübahisələr təşkil edən münaqişələrin mövcudluğunu özünün güc siyasətinin mühüm aspekti kimi görür. Bu, İranın islam dünyasını İslam inqilabı konsepsiyasının bəhrələri olan hərbi-siyasi şiəlik çərçivəsində görmək istəklərindən qaynaqlanır. Molla rejimi islam məzhəbləri arasındakı parçalanma meyillərini zəhərli ideoloji vasitələrlə stimullaşdırır. Yaxın Şərqin qan çanağına çevrilməsində bu regionda maraqları olan böyük oyunçuların nə qədər rolu varsa, İranın da bəd əməllərdə imzası mövcuddur. Regional təhlükəsizlik mühitini mütiləşdirib öz caynağında saxlamaq istəyən İran ideoloji bazalarının laxlamasından sonra onu yenidən dirçəltməkdə çətinlik çəkir. Ölkədə tüğyan edən təlatümlər və etirazçıların molla rejiminə qarşı sərt mövqeyi Tehranı sarsıdır".

**İsmayıl**



# Abşeron rayonunda 7 evdən oğurluq edən şəxslər saxlanılıblar

**Abşeron rayonu Atyalı qəsəbəsində yerləşən evlərdən birindən oğurluq edilib.**

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, mənzilin sahibi Abşeron Rayon Polis İdarəsinin Qobu Polis Bölməsinə müraciət edərək naməlum şəxsin evə daxil olaraq oradan dəyəri 5 min manat olan bir ədəd ov tüfəngi, həmçinin digər məişət əşyaları oğurladığını bildirib.

Eyni məzmunlu şikayətlərlə ətraf ərazidə olan daha bir neçə evdən Polis Bölməsinə şikayətlər daxil olub. Hadisə yerlərinə baxış keçirilən zaman müəyyən edilib ki, oğurluqlar eyni şəxslər tərəfindən törədilib.

Qobu Polis Bölməsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluqlarda şübhəli bilinən əvvəllər məhkum olunmuş Aqşin Hüseynov və Elman Əkbərzadə saxlanılıblar. Onlar ifadələrində həmin ərazidə yerləşən ümumilikdə 7 evdən televizor, kompüter avadanlıqları və digər əşyalar oğurladıqlarını bildiriblər. Aqşin Hüseynov və Elman Əkbərzadədən oğurluq yolu ilə ələ keçirdikləri əşyaların bir qismi aşkar edilərək götürülüb.

Faktlarla bağlı Qobu Polis Bölməsində toplanan materiallar Abşeron Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib, araşdırmalar davam etdirilir.

# "Xomeynilik şiəlik deyil"

## Ceyhun Məmmədov: "İran rejiminin bu davranışları islam dəyərlərinə tamamilə ziddir"





**"İran rejimi islam pərdəsi altında ölkəmizdə və dünyada çirkin məqsədlərini həyata keçirməyə çalışır. Molla rejiminin təxribatları və atdığı addımlar bunu bir daha təsdiq edir".**

*Bu sözləri millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, bu gün İran özünün şiə dövləti olduğunu iddia etsə də, əslində onun əməlləri şiəliyin prinsiplərinə də uyğun gəlmir:* "İran bu gün şiəliyi deyil, Xomeyniliyi təbliğ edir və bundan şiə məzhəbinə mənsub insanların yaşadıqları ölkələrdə təsir gücünü artırmaq üçün istifadə edir. Xomeynilik şiəlik deyil. Bunu hər kəs bilməlidir. İran rejiminin bu davranışları islam dəyərlərinə tamamilə ziddir. Bu gün İran öz çirkin əməlləri ilə islamı, şiəliyi də gözdən salır. Bu gün İranın bu siyasətindən ən çox elə şiələr əziyyət çəkir. Bu gün əksər müsəlman ölkələrindəki münaqişələrin arxasında İran durur. Budurmu islam? İslam bunumu təbliğ edir? Əgər İran şiə dövlətidirsə, niyə müsəlman qardaşlarının deyil, Ermənistanın yanındadır, onun güclənməsi üçün səylə çalışır? Bu əməlləri ilə İran özünü ifşa edir və islamdan öz siyasi məqsədlərini həyata keçirmək üçün istifadə etdiyini açıq göstərir. Bir müddət bundan əvvəl ofisi Azərbaycanda bağlanmış Seyid Əli Əkbər Ocaqnejat Bakıda İranın çirkin niyyətlərini həyata keçirmək üçün səylə çalışırdı. Azərbaycan vaxtında bu şəxsi ölkədən çıxararaq onun ofisini bağladı".

**Parlament üzvü qeyd edib ki, İran eyni zamanda Azərbaycan vətəndaşlarını dini ziyarət pərdəsi altında İrana apararaq zəhərli ideologiyalarla zəhərləyir:** "Digər bir məsələ İran islamın 5 əsas şərtindən birinə - Həcc ziyarətinə qarşı alternativ olaraq Ərbəin ziyarətini yaradıb və İran rejimi bundan həm Səudiyyə Ərəbistanla mübarizədə istifadə edir, həm islam dininin parçalanmasını dərinləşdirir, həm də Kərbəla ziyarəti üzərindən qurduğu biznesi inkişaf etdirir. Digər bir sual İran Əhli-Beytin müqəddəs məkanlarına - həm Kərbəla-Nəcəf, həm Məşhəd-Qum səfərlərindən nə qədər pul qazanır və bu pulları hara xərcləyir? Proseslərin təhlili göstərir ki, İran rejimi əldə olunan gəlirləri İranın başqa ölkələrdə silahlı dəstələrinin maliyyələşməsinə xərcləyir. Bu da İran rejiminin əsl mahiyyətindən xəbər verir".

**İsmayıl**

# ABŞ İranla bağlı plan hazırlayıb



## Ölkə molla rejimindən azad olunacaq

**ABŞ Prezidenti Cozef Bayden İranda cərəyan edən proseslərə münasibət bildirib. Bayden deyib ki, tezliklə İrandakı qarışıqlıqlar sona çatacaq: "Narahat olmayın, biz İranı azad edəcəyik, onlar tezliklə azad olacaqlar". Dövlət başçısının çıxışı zamanı nümayişçilər İrandakı etirazları dəstəkləyən plakatlarla küçələrə axışıblar. Bayden İrandakı vəziyyətlə bağlı görüləcək tədbirlər haqqında ətraflı məlumat verməyib.**

ABŞ-ın Milli Təhlükəsizlik Şurası da məsələyə aydınlıq gətirməyib. Ağ Ev rəhbərinin açıqlamasından qısa zaman sonra İran Prezidenti İbrahim Rəisi Co Baydenə cavab verib. Rəisi Baydenə İranın 43 il əvvəl "azad olduğunu" xatırladıb: "ABŞ Prezidenti Co Bayden İranı azad etməyə hazırlaşır, lakin İran artıq 43 il əvvəl azad olunub". O qeyd edib ki, İran ABŞ-ın əsiri olmayacaq. Xatırladaq ki, bu ilin sentyabrın ortalarından başlayaraq İranda etiraz aksiyaları keçirilir. 22 yaşlı Məhsa Əmininin əxlaq polisi tərəfindən zorakılığa məruz qalması və bir müddət sonra xəstəxanada vəfat etməsi ölkədə ictimai-siyasi vəziyyəti gərginləşdirib. Hazırda etirazçılar ölkədə hakimiyyətin dəyişməsini tələb edirlər.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, Prezident Co Bayden əslində ABŞ-da hazırlanmış İranla bağlı plandan xəbər verib. Professor vurğulayıb ki, 1997-ci ildə təsdiqlənmiş tədbirlər planına görə, 2025-ci ilədək İran parçalanmalıdır:** "İranda 5 dövlətin yaradılması ilə bağlı layihə var. 5 dövlətdən biri də Cənubi Azərbaycandır. İran rejimi bu plandan xəbərdardır. Məhz ona görə də fars-molla rejimi daxildə və xaricdə yaşanan proseslərdən həddindən artıq narahatdırlar. Diqqəti bu məsələdən yayındırmaq üçün Azərbaycana "barmaq silkələyirlər". Super güc olan ABŞ-da meydan oxumağa gücləri və cəsarətləri çatmır. Tehran rejimi başa düşmür ki, Azərbaycana qarşı hansısa addımları bumeranq effekti verəcək. Azərbaycana hərbi təcavüzü İranın tarımar olması deməkdir. Çünki bir neçə yerdən İrana hücum ediləcək".

**C.Nuriyevin fikrincə, əslində molla rejiminin məqsədi bizi güneylilərlə üz-üzə qoymaq, hər hansı hərbi toqquşmada soydaşlarımızı qarşımıza sipər etməkdir:** "Cənubi Azərbaycanda farslar yaşamır, Təbrizdən Zəncana qədər azərbaycanlılardır. Lakin güneyli soydaşlarımız ayaqdadır, rejimə qarşı etirazlarını bildirirlər, aksiyalara qoşulurlar. Həmçinin, İrandakı etniklər də rejimə qarşı çıxış edirlər. Yəni rejim çox gərgin və çıxılmaz durumdadır. Belə məqamda hansısa radikal qərar və addım birbaşa İranın əleyhinə yönələcək. Əmin olsunlar ki, dar gündə yanlarında ermənilər də olmayacaq. Hamıdan qabaq ermənilər farslara xəyanət edəcəklər. İran hansısa ölkə ilə savaşa başlamaq gücündə deyil, amma İrana qarşı hərbi əməliyyatlar başlaya bilər. İranda həqiqi islam yoxdur. Rejimin düşmənçiliyi ancaq öz müsəlman qardaşları ilədir və ermənilərlə, xristianlarla çox yaxşı dil tapırlar".

**İsmayıl Qocayev**

# Bir qığılcım yetər!

## Beş mərtəbəli binaların zirzəmiləri ölüm təhlükəsi saçır

**Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Səbail rayonu, Mehdi Hüseyn küçəsi, ev 88, mənzil 5 ünvanında yerləşən Əhmədov Sabir Faiq oğluna məxsus "Xəngəland" kafesində yoxlama zamanı yanğın təhlükəsizliyi sahəsində çoxsaylı nöqsanların mövcud olduğu, həmin nöqsanların insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa təhlükə yaratdığı müəyyən edilib.**

Bu barədə Fövqəladə Hallar Nazirliyinin məlumatında qeyd olunur. Bildirilir ki, 1 noyabr 2022-ci il tarixində 90-JB-457 dövlət qeydiyyat nişanlı, "Qazel" markalı yük avtomobilindən propan qaz balonlarının sözügedən obyektə daşınması haqqında daxil olmuş əməliyyat məlumatı və sakinlərin müraciətləri əsasında operativ yanğın-texniki müayinə keçirilməsi məqsədilə qanunamüvafiq qaydada qeyd olunan obyektdə yoxlama aparılıb və yanğın təhlükəsizliyi qaydalarının tələblərinin kobud şəkildə pozulduğu müəyyən edilib. Obyektin yerləşdiyi mərtəbədə binanın ümumi istifadəsində olan, insanların təhlükəsiz təxliyəsi üçün nəzərdə tutulmuş dəhliz hissəsindən mətbəx otağına qanunsuz qaz xəttinin çəkildiyi və propan qaz balonlarının rezin boru vasitəsilə həmin xəttə birləşdirilərək yanğın təhlükəsizliyi və tikinti norma və qaydalarının tələblərinin kobud şəkildə pozulduğu, obyektin otaqlarında avtomatik yanğın xəbərdaredici qurğuların quraşdırılmadığı, insanların kütləvi toplaşdığı obyektdə ehtiyat təxliyə yolunun mövcud olmadığı, obyektin normaların tələblərinə uyğun sayda ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilmədiyi, elektrik təsərrüfatına profilaktik baxış keçirilmədiyi və elektrik naqillərinin izolyasiyasının gərginliyə qarşı müqavimətinin yoxlanılmadığı, tüstü bacalarının yağ qalıqları və digər yanar materiallardan təmizlənmədiyi, obyektin işçi heyətinin yanğın təhlükəsizliyi tədbirləri və yanğın zamanı davranış qaydaları haqqında təlimatlandırılmadığı aşkar olunub. Onu da qeyd edək ki, sahibkar Sabir Əhmədova belə fəaliyyətin yanğın-partlayış hadisələrinin baş verməsinə real zəmin yaratması barədə dəfələrlə xəbərdarlıq edilməsinə və barəsində inzibati tədbirlər görülməsinə baxmayaraq, obyektdə kobud qayda pozuntularına hələ də yol verilir. Beləliklə, mövcud vəziyyət onu göstərir ki, obyektin istismarının davam etdirilməsi nəticəsində orada hər an baş verə biləcək yanğın və ya partlayış hadisəsi qısa müddətdə genişlənərək faciəni qaçılmaz edəcək. Qeyd olunanlarla əlaqədar qanunvericiliyə uyğun olaraq, yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinin pozulması faktları aşkar edilmiş Bakı şəhəri, Səbail rayonu, Mehdi Hüseyn küçəsi, ev 88, mənzil 5 ünvanında yerləşən Əhmədov Sabir Faiq oğluna məxsus "Xəngəland" kafesində işlərin və xidmətlərin göstərilməsinin dayandırılması barədə Qərar qəbul olunub və Qərarın bir nüsxəsi obyektin nümayəndəsinə təqdim edilib. Eyni zamanda, real təhlükə mənbəyi olan propan qaz balonlarının binadan kənarlaşdırılması təmin olunub. Qeyd edilir ki, ətrafda yaşayan vətəndaşlar Dövlət Yanğın Nəzarəti Xidmətinin bu qərarından razı qalıb, minnətdarlıqlarını bildiriblər.



"Ciddi yoxlamalar aparılsa, paytaxtdakı iaşə obyektlərinin bəlkə də 90 faizində nöqsanlar, təhlükəli hallar aşkarlanar"

Paytaxtda yaşayış binalarının alt mərtəbələrinin xidmət sektoruna aid olduğu sirr deyil. Kafe, restoran, barlar, təsərrüfat malları, geyim mağazaları, mini-marketlər, qadın-kişi salonları... binaların zirzəmiləri bu cür obyektlərlə zəbt edilib. İllərdir, həyəcan təbili çalınır ki, yaşayış binalarının zirzəmi qatının, həmçinin ilk mərtəbələrin müxtəlif iaşə obyektlərinə icarəyə verilməsi ciddi təhlükə yaradır. Yaşayış binalarının zirzəmi qatının öz təyinatı var. Oradan qaz boruları, elektrik naqilləri izolyasiya edilmiş vəziyyətdə keçməlidir. Zirzəmilər həm də təxliyə və sığınacaq məqsədi daşıyır. Amma görünən budur ki, paytaxtdakı yaşayış binalarının zirzəmilərinə əylənmək üçün sığınırlar. Və bu "sığınmaçılar" da bəzən fəlakətin tam ortasında qalırlar. Bir neçə ay əvvəl paytaxtın Səbail rayonu, Tərlan Əliyarbəyov küçəsindəki "Location" gecə klubunda baş vermiş partlayış nəticəsində 1 nəfər öldü, 31 nəfər müxtəlif dərəcəli xəsarət aldı. Partlayışın obyektdə qanunsuz olaraq istifadə edilən qaz balonundan baş verdiyi məlum oldu. İndi də FHN Səbail rayonundakı başqa bir obyektin fəaliyyətini qaz balonundan istifadəyə görə dayandırıb. Səbail rayonunda belə kafe və restoranlar çoxdur. Özü də qədim, memarlıq üslubu ilə fərqlənən, ötən əsrdə inşa edilmiş binaların alt mərtəbələrini, zirzəmi qatlarını kafelərə, restoranlara, gecə klublarına çevirirlər. Məlum məsələdir ki, bu binalar cəlbedicidir deyə sahibkarlar onlara yiyələnir. Əlavə qaz xəttinin çəkilməsinə icazə olmadığından qaz balonlarından istifadə edirlər. Bu da yanğın, patlayış təhlükəsi yaradır. Binalar girişlə məhdudlaşır. Çox zaman binaya giriş, ümumiyyətlə zəbt edilir. Səs-küy də bir yandan. Bütün bunlar bina sakinlərinin narazılığına səbəb olur.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə açıqlamasında paytaxtda əksər 5 mərtəbə binaların alt mərtəbələrinin iaşə obyektləri tərəfindən zəbt edildiyini bildirdi və qeyd etdi ki, burada əsas məsələ təhlükəsizlik qaydalarına riayət edilməsidir:**

- Məlum məsələdir ki, paytaxtdakı iaşə obyektlərinin əksəriyyətində qaz balonlarından istifadə olunur. Çünki binalar köhnədir, ora əlavə qaz xəttinin çəkilişinə icazə verilmir, sahibkarlar əlavə qaz xəttinin çəkilişi üçün icazə almaq kimi yorucu işə baş qoşmaq da istəmirlər. Obyekti qaz balonlarıyla təchiz etməklə asan yolu seçirlər. Amma bu, çox təhlükəli yoldur. Təkcə, kafe, restoranlar deyil təhlükə yaradan. Binaların alt mərtəbələrində tikinti materialları satışı təşkil edilir. Orada tez alışan maddələr, o da həssas tikinti materialları, kimyəvi tərkibli materiallar satılır. Bir qığılcım yetərlidir ki, böyük bir yanğın baş versin. Bundan təkcə sahibkar ziyan çəkməyəcək, o binada, ətraf binalarda yaşaynalar da zərər görəcək, həyatları üçün təhlükə yaranacaq. Ümumiyyətlə, bütün obyektlərin tikintisi və istifadəsi zamanı yanğın təhlükəsizliyi qaydalarına əməl edilməlidir. Obyektlər layihələndirilərkən də buna xüsusi diqqət ayrılmalı, layihə sənədlərində yanğın təhlükəsinə qarşı hansı işlər görüldüyü göstərilməlidir. Obyektin əlavə təxliyə planı, təxliyə çıxışı olmalıdır. Orada işləyəcək insanların təhlükəsiz şəraitdə çalışmaları üçün şərait yaradılmalıdır. Hər bir obyektdə yanğınla mübarizə üçün xüsusi alətlər qoyulmalıdır, suyun daimiliyi təmin edilməlidir. Bunlar böyük məbləğdə pul tələb etmir. Sadəcə, təşkilati işlər zəif aparılır, ciddi bir məsələyə səhlənkar yanaşılır. Ciddi yoxlamalar aparılsa, paytaxtdakı iaşə obyektlərinin bəlkə də 90 faizində nöqsanlar, təhlükəli hallar aşkarlanar. Hesab edirəm ki, paytaxt sakinləri də bu məsələlərdə aktiv olmalı, təhlükəli hallarla bağlı dövlət orqanlarını məlumatlandırmalıdır. Kimlərsə gəlib xəngəl, dönər yeyəcək, sahibkar da pul qazanacaq deyə, insanların həyatı təhlükə altında qalmamalıdır.

**Məlahət Rzayeva**

# Yod heç də orqanizmi nüvə radiasiyasından qorumur

## Professorun sözlərinə görə, ekstremal durumlarda insanların şayiə və qeybət mədəniyyətinin dalınca düşməsi təəssüf doğurur

**Azərbaycanda yodun qiyməti kəskin artıb. Bu barədə sosial şəbəkələrdə də məlumat yayılıb. Əvvəllər 0.40 qəpiyə satılan yod hazırda apteklərdə 1,20 manatadır. Məlumat üçün bildirək ki, Tarif (qiymət) Şurasının 26 oktyabrda keçirilən iclasında yeni dövlət qeydiyyatına alınan 76 dərman vasitəsinin qiyməti təsdiq edilib. Həmin siyahıda yod da əlavə olunub. Bu siyahıda bir neçə ölkə istehsalı olan yod var.**

Ancaq hazırda apteklərdə satışda olan əsasən Rusiyanın Yaroslav əczaçılıq fabrikinin 5 faizli 10 ml olan məhsuludur. Onun pərakəndə qiyməti oktyabrın 31-dən 1,19 manat müəyyən edilib. Taarif Şurasının siyahısında olan qiymətlərdən biri dərmanların topdan, digəri pərakəndə satış qiymətidir. Məsələn, aptek yodu 0,99 manata alıb, 1,19 manata satmalıdır.

**Yodun bahalaşmasını şərh edən iqtisadçı-ekspert Natiq Cəfərlinin "Şərq"ə açıqlamasında dünyada yodla bağlı ajiotajın bir neçə aydır davam etdiyini deyib. Onun sözlərinə görə, təkcə Azərbaycanda deyil, analoji proses bir çox Avropa ölkələrində də müzakirə edilir. Bunun da səbəbi Rusiya rəsmilərinin zərurət yaranarsa Ukraynaya qarşı nüvə silahından istifadə edə biləcəyi barədə bəyanatlarıdır:**

"Putinin Ukrayna üzərindən qərb ölkələrinə hədəsi bir çox ölkələr kimi Azərbaycan vətəndaşlarında da ciddi narahatlıq yaradıb. Xatırlayırsınızsa, bir müddət əvvəl də apteklərdə yod tapmaq mümkünsüz idi. Rusiyanın nüvə silahından istifadə etməsi və ya nüvə reaktorlarının dağılması fonunda yodun atmosferə yayılan radiasiya ilə mübarizədə insanlara bu və ya digər formada kömək olacağı ehtimal olunur.



İnsanların təşvişə düşməsinin fərqinə varan "işbaz"lar yodun radioaktiv şüalanmaya qarşı qoruyucu funksiya daşıması mövzusu ətrafında spekulyasiyalara başladılar. Nəticədə insanlar kütləvi şəkildə apteklərdə yod axtarışına çıxdı. Yod istehsalçıları və satışını təşkil edən firmalar piştaxtalardan yodları yığışdırıb bahalaşması üçün "zəmin" yaratdılar. Yəni biz apteklərdə "filan dərman tapılmır" müzakirələrindən bir neçə həftə sonra həmin dərmanın 2-3 qat baha qiymətə piştaxtalarda "peyda" olması faktı ilə ilk dəfə rastlaşmırıq. Dərman bazarında mütəmadi olaraq bu variantdan istifadə olunur".

**N.Cəfərli deyib ki, Taarif Şurasının dərman preparatlarının qiymətini tənzimləməsi prosesi kökündən yanlışdır və bu proses Azərbaycanda çox böyük fəsadlara səbəb olub:** "Bir neçə ildir molekullar üzrə qiymətlərin tənzimlənməsi praktikasını icra edən Taarif Şurası yeritdiyi bu siyasətlə ölkəyə keyfiyyətsiz dərman preparatlarının gətirilməsinə nail oldu. Qiymətlər yalnız molekullar və həcmə görə tənzimlənir. Yəni bu gün ölkəmizə idxal edilən preparatlar dərman istehsalında öndə olmayan ölkələrin eyni molekulda istehal etdiyi dərmanlardır. Apteklərdə satılan dərman insanların müayinə və müalicəsində effektiv nəticə vermir. Əksər insanlar dərmanları xaricdən gətirdir.

Hesab edirəm ki, hökumət bazar iqtisadiyyatının genişlənməsinə və xarici dərman şirkətlərinin ölkəyə girişinə şərait yaratmalıdır.

Azərbaycan hökuməti məsələlərə yenidən baxmalı və rəqabət mühitini genişləndirməlidir".

**Professor, tibb eksperti Adil Qeybulla isə deyib ki, yod orqanizmi nüvə radiasiyasından qorumaq üçün effektiv deyil. Professorun sözlərinə görə, ekstremal durumlarda insanların şayiə və qeybət mədəniyyətinin dalınca düşməsi təəssüf doğurur:** "Bu kimi hadisələrin qarşısını almaq üçün maarifləndirməyə ehtiyac var. Xatırladım ki, pandemiya təcrübəsində də analoji vəziyyətlə qarşılaşdıq. Onda da bəzi dərman preperatlarının kütləvi alışı baş verdi, əvvəl apteklərdə dərman çatışmazlığı yarandı. Sonradan isə həmin dərmanları apteklər bir neçə dəfə baha qiymətə satmağa başladılar. İndi də yodla bağlı analoji senari davam edir. Bir müddət əvvəl yod tapılmırdı, indi də 3 dəfə baha qiymətə satılır.

Heç bir anlayışı olmayan insanlar şayiələrin arxasınca sürünərək, apteklərdən külli miqdarda yod alırlar. Düşünürlər ki, Rusiya taktiki nüvə silahını istifadə edərsə, onun bura gəlib çata biləcək zərərlərindən qorunmaq üçün yoddan istifadə vacibdir. Halbuki yodun radioprotektiv təsiri yetərli deyil. Yod özlüyündə radioprotektiv - yəni şüa əleyhinə maddə deyil. Bunun üçün "Amifostine", "Palifermin", "İndralin", "Betaleykin" kimi preparatlar var ki, onlar bu gün müasir radioprotektiv müalicədə istifadə edilir".

**A.Qeybulla deyib ki, əgər nüvə silahı istifadə edilərsə, ölkələr dərhal mülki-müdafiə sisteminə keçir:** "Bütün zirzəmilər, xüsusi gizlənmə yerləri hazırlanır, əhaliyə xəbərdarlıq olunur. Xəbərdarlıqdan sonra insanlar məlumatlandırılır və təbii ki, əhalinin sağlamlığını qorumaq məqsədilə onlar sadaladığım radioprotektiv dərmanlarla təmin edilirlər. Yəni bu, ancaq dövlətin səlahiyyətində və imkanında olan tədbirlərdir. Bu məsələdə vətəndaşların hər hansı bir ehtiyat görməsinin heç bir mənası, əhəmiyyəti yoxdur".

**Şəymən Bayramova**

# Türkiyənin İzmir vilayətində zəlzələ

## Hadisə zamanı xəsarət alanlardan biri ölüb



**Türkiyənin İzmir vilayətində baş verən zəlzələ zamanı xəsarət alaraq xəstəxanaya yerləşdirilən 18 yaşlı gənc ölüb.**

Azərtac xəbər verir ki, zəlzələ baş verən zaman İzmirin Buca rayonunda yerləşən evlərinin eyvanından özünü atan bu şəxs dərhal xəstəxanaya yerləşdirilib. Edilən bütün müdaxilələrə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb.

Türkiyənin səhiyyə naziri Fahrettin Koca yeraltı təkanlarla bağlı verdiyi məlumatda hadisə zamanı 64 nəfərin panikaya düşərək psixoloji zərbə aldığını deyib. Zəlzələ nəticəsində yeddi nəfər müxtəlif bədən xəsarətləri alıb. Onlardan biri də dünyasını dəyişib. Digər xəsarət alanların müalicəsi davam edir.

*Xatırladaq ki, noyabrın 4-də Türkiyənin İzmir vilayətində yerli vaxtla saat 3:29-da 4.9 bal gücündə zəlzələ olub. Təbiət hadisəsi nəticəsində iyirmiyədək binada çatlar əmələ gəlib. Araşdırmalar davam edir.*

# 2 nəfər vəfat edib

## Daha 51 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 51 yeni yoluxma faktı qeydə alınıb, 47 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 823 469 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 813 201 nəfər müalicə olunaraq sağalıb, 9 953 nəfər vəfat edib, aktiv xəstə sayı 315 nəfərdir.

Ölkədə son sutka ərzində 1 935, hazırkı dövrədək isə 7 329 356 test aparılıb.

# "Sülh yoxdursa, silahlar "danışacaq!"

## Elxan Şıxəliyev: "Ermənistan Silahlı Qüvvələri Soçi görüşündən sonra gərginliyin artırılması yönündə göstərişlər alıblar"

**"Ermənistan Silahlı Qüvvələri təmas xəttində, xüsusilə Kəlbəcər istiqamətində gecə saatlarında mövqelərimizi atəşə tutub. Biz hər zaman deyirdik "Sülh yoxdursa, günün birində silahlar danışacaq". Görünür, Ermənistan Silahlı Qüvvələri Soçi görüşündən sonra gərginliyin artırılması yönündə göstərişlər alıblar".**

**Bunu "Şərq"ə açıqlamasında hərbi ekspert Elxan Şıxəliyev dayib.**

O bildirib ki, təmas vəziyyətində olan erməni birlik və birləşmə komandirlərinə Müdafiə Nazirliyi göstəriş verir, onlar da icra edir:

"Sərhəddə vəziyyəti gərginləşdirməkdə məqsəd Avropadan Ermənistana gedən missiya heyətinə həmin ərazilərdə guya, Azərbaycanın atəşkəsi pozduğunu göstərməkdir. Ermənistan heç vaxt atəşkəsi pozduğunu qəbullanmır. Atəşkəsi pozuraq Azərbaycanı günahlandırır, köhnə taktikadır.



## "Hər zaman atəşkəsin pozulmasını, diversiya kəşfiyyat xarakterli fəaliyyətlərin lokal icrasına hazır olmalıyıq"

Hər zaman atəşkəsin pozulmasını, diversiya kəşfiyyat xarakterli fəaliyyətlərin lokal icrasına hazır olmalıyıq. Soçi görüşünün ardınca Ermənistan sülh sazişinin imzalanması istiqamətində konkret mesajlar ötürmədi. Qeyri-qanuni erməni hərbi birləşmələrinin torpaqlarımızdan çıxarılması, Zəngəzur dəhlizinin açılması yönündə müsbət addımlar atmadı.

Azərbaycan Silahlı Qüvvələri atəşkəs pozulanda misli ilə adekvat cavab verir. İstənilən halda lokal miqyasda atəşkəsin pozulması irimiqyaslı qarşıdurma ilə nəticələnə bilər. Ermənistan bundan çəkinməlidir. Lakin Azətbaycan ordusunu qarşıdurmaya təhrik etməkdə israrlıdır".

Qeyd edək ki, noyabrın 3-dən 4-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri 5 saat müddətində Basarkeçər rayonunun Əzizli və Yuxarı Şorca yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə və Mollabayramlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub. Bununla bağlı Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb.

Ordumuzun bu istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**Aygün Tahir**

# Orduya maliyyə dəstəyi hər zaman gücləndiriləcək



## Elman Məmmədov: "Növbəti il üçün də müdafiə xərclərimizi kifayət qədər nəzərdə tutmuşuq"

**"Bütün məsələlər bir neçə gündən sonra Milli Məclisdə büdcənin müzakirəsi vaxtı elan olunacaq".**

Bu sözləri "Şərq"ə millət vəkili Elman Məmmədov Azərbaycanda hərbi xərclərin artırılmasına münasibət bildirərkən deyib.

O bildirib ki, Azərbaycanın bugünkü durumu, ətrafımızda mövcud olan gərginliklər, xoş olmayan münasibətlərin səbəbkarları məlumdur: "İlk növbədə, təbii ki, Ermənistan və bizə düşmənçilikdə ondan geri qalmayan rəsmi İrəvanın dostu, qardaşı molla rejimi ağla gəlir. Biz dövlətimiz, təhlükəsizliyimiz və xalqımızı qorumaq, ərazi bütövlüyümüzün əbədi olması üçün həmişə müdafiəmizi yüksək səviyyədə saxlamalıyıq. Hər zaman döyüşə hazır olmalıyıq. Azərbaycan Ordusu güclüdür. Amma Silahlı Qüvvələrimizin qüdrətli olduğunu bilib arxayınlaşmırıq. Hər gün ordumuzun bütün sahələr üzrə hazırlığını, müdafiə qüdrətini daha da artırırıq.

Bunun üçün də bir neçə vacib, lazımlı şərtlərdən biri ordunun maliyyə dəstəyinin gücləndirilməsi, hərbi xərclərin qaydasında olmasıdır. Növbəti il üçün də müdafiə xərclərimizi kifayət qədər nəzərdə tutmuşuq. Bu, çox önəmlidir. Azərbaycan Ordusu mövcud olan ən müasir silahlarla təchiz olunub. Ordunun fiziki, döyüş hazırlığı, hərbçilərin təminatı kimi məsələlər hamısı dövlət başçımızın nəzarətindədir".

Qeyd edək ki, gələn il Azərbaycanda hərbi xərclər artırılacaq.

Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deputat Fəzail Ağamalı deyib. O vurğulayıb ki, 2023-cü il ölkəmizdə hərbi xərclər bu illə müqayisədə, təxminən, 600 milyon manat artırılacaq. Amma bu, kifayət deyil. Hərbi xərclər az artırılır".

**Sücayət Mehti**

# Ermənilər sülhə hazır olmalıdır

## Deputat: "Soçidə Azərbaycanın ərazi bütövlüyü təsdiqləndi"



**Ermənistanın böyük ümid bəslədiyi Soçi görüşü bu dəfə də ermənilər üçün uğursuz oldu. Üçtərəfli görüşdən əvvəl prezidentlər Vladimir Putin və İlham Əliyevin keçirdikləri təkbətək görüşdə artıq görüşün taleyi həll olunmuşdu. Üçtərəfli görüşdə isə sadəcə sabitliyin güclənməsi istiqamətində atılacaq addımlar və Qarabağda dinc həyatın bərqərar olmasına dair məsələlər müzakirə edildi. Yəni əvvəlki görüşlərdə olduğu kimi, bu dəfə də Azərbaycan diktə edən tərəf oldu. Baxmayaraq ki, Ermənistan rəhbərliyi bu görüşə "xüsusi hazırlıq" görmüşdü, yenə də bütün cəhdləri fiaskoya uğradı.**

Görüşü "Şərq"ə dəyərləndirən Milli Məclisin deputatı, professor Kamilə Əliyeva deyib ki, Soçi şəhərində 2020-ci ilin noyabr və 2021- ci ilin yanvar aylarında imzalanmış üçtərəfli Bəyannamələrin icrası ətrafında müzakirələr aparılıb və münasibətlərin normallaşdırılması üçün əlavə təkliflər müzakirə edildi. Üçtərəfli görüşdən əvvəl Prezident cənab İlham Əliyev Rusiya Prezidenti Vladimir Putin ilə görüşdə Qarabağ münaqişəsinin artıq tarixdə qaldığını və bu münaqişənin iki il bundan əvvəl başa çatdığını xüsusi vurğuladı. Danışıqlar ancaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində aparıla bilər.

Bununla da cənab İlham Əliyev qətiyyətli şəkildə Azərbaycanın mövqeyini bildirdi. Prezident cənab İlham Əliyev dəfələrlə qeyd etmişdi ki, Qarabağ münaqişəsi adlı problem həll olunub və bu məsələ ilə bağlı heç bir vasitəçiyə ehtiyac yoxdur. Soçidə qəbul olunmuş Bəyannamədə Azərbaycanın dövlət və milli maraqlarını müdafiə edən bir sıra məsələlər öz həllini tapmış oldu. Belə ki, Azərbaycanın ərazi bütövlüyü təsdiqləndi, Qarabağ və orada yaşayan ermənilərin statusundan bəhs edilmədi. Eləcə də Azərbaycanla Ermənistan arasında sülh sazişinin hazırlanması cənab İlham Əliyevin irəli sürdüyü 5 əsas baza prinsipi əsasında formalaşdırılacaq. Üçtərəfli görüşün nəticəsi olaraq imzalanmış bəyanatın bütün bəndləri Azərbaycanın mövqeyini tam ifadə edir. Müharibə başa çatdıqdan sonra Prezident cənab İlham Əliyev Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına, Cənubi Qafqazın iqtisadi cəhətdən inkişaf etməsi üçün birgə əməkdaşlığa çağırış edib.

K.Əliyevanın sözlərinə görə, humanitar sahədə də Azərbaycanın gördüyü işlər dünya ölkələri tərəfindən rəğbətlə qarşılanıb. Müharibə zamanı əsir düşüb onlarla erməni hərbiçisinə tibbi yardım göstərilib və onlar Ermənistan tərəfinə təhvil verilib: "Azərbaycan hər zaman beynəlxalq hüququn norma və prinsiplərinə sadiqlik nümayiş etdirir. Cənab İlham Əliyevin irəli sürdüyü 5 baza prinsipinin əsasını BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq hər iki ölkənin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması təşkil edir.

Azərbaycan iki dövlət arasında sülh müqaviləsinin imzalanmasına hər zaman hazır olduğunu, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına xidmət edəcək Rusiyanın vasitəçiliyini qəbul edir.

Eyni zamanda Azərbaycan sülhün yaradılmasına xidmət edəcək hər iki dövlətin ictimaiyyət nümayəndələrinin, din xadimlərinin və Parlamentlərarası əlaqələrin yaradılmasına tərəfdardır. Ermənistan tərəfi də bu prinsiplərə əməl edərsə iki dövlət arasında sülh sazışinin imzalanması reallaşar".

**Şəymən**

# İran rəsmiləri İrəvanı su yoluna döndərib

## Tehranın bölgədə dostu və tərəfdaşı Ermənistandır



**İran parlamentinin sədri Məhəmməd Baqir Qalibafın Azərbaycana gözlənilən səfəri təxirə salınıb. Səfərin təxirə salınmasının səbəbi göstərilməyib. Qalibafın ziyarətinin daha uyğun bir zamanda baş tutacağı qeyd olunub. Lakin daha sonra məlum olub ki, Azərbaycana səfəri təxirə düşən İran parlamentinin sədri İrəvana gedəcək.**

Bu barədə Ermənistan parlamentinin mətbuat katibi bildirib. O qeyd edib ki, Məhəmməd Baqir Qalibaf Ermənistana dəvət olunub. O, konkret vaxtı açıqlamayıb. Xatırladaq ki, bir müddət əvvəl Azərbaycan və İran XİN rəhbərlərinin telefon danışığı olub. İran XİN rəhbəri Qalibafın tezliklə Azərbaycana səfər edəcəyinin anonsunu verib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, rəsmi Bakının hazırkı durumda İran parlamentinin sədri Məhəmməd Baqir Qalibafın Azərbaycanda qəbulundan imtina etməsi doğru qərardır:** "Bundan əvvəl Prezident İlham Əliyevin Tehrana səfərdən imtinası da anlaşılandır. Rəsmilərin bu səfərlərdə münasibətlərin indiki gərgin dövründə "dost və tərəfdaşlıqdan" danışması inandırıcı görünməyəcək. Adətən ölkələr arasında münasibətlərdə problemlər yarananda müzakirələr aşağı səviyyədə davam edir. Əgər aşağı səviyyədə aparılan danışıqlarda ortaq məxrəcə gəlinərsə, qarşılıqlı səfərlərə və rəsmilərin görüşlərinə də ehtiyac yaranar. İndiki şərtlər altında isə bu mümkün deyil. İran parlamentinin sədrinin Azərbaycan əvəzinə Ermənistana səfər etməsi təbiidir. Çünki Tehranın bölgədə dostu və tərəfdaşı Ermənistandır".

**İsmayıl Qocayev**

# Saakaşvilinin səhhəti pisləşib

## Keçmiş Prezident çəki itirib və mütəmadi olaraq qızdırması olur



**Gürcüstanın həbsdə olan keçmiş Prezidenti Mixeil Saakaşvilinin səhhəti pisləşib.**

APA-nın yerli bürosu xəbər verir ki, bu barədə onun anası Giuli Alasania jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, M.Saakaşvili mart ayından bəri çox çəki itirib və mütəmadi olaraq qızdırması olur.

G.Alasania əlavə edib ki, həkimlər çox çalışsalar da, xəstəliyin səbəbini müəyyən edə bilməyiblər. Əksinə, sabiq Prezidentin vəziyyəti getdikcə ağırlaşır.

G.Alasania M.Saakaşvilinin müalicə üçün xarici ölkəyə nəql edilməyi gözlədiyini deyib.

Qeyd edək ki, ötən il sentyabrın sonunda qanunsuz yollarla Gürcüstana qayıtmış M.Saakaşvili oktyabrın 1-də Tbilisidə qaldığı mənzildə həbs edilib. Sabiq Prezident həbsxanada keçirdiyi aclıq aksiyalarından sonra səhhətində yaranmış problemlərlə əlaqədar bir müddətdir Tbilisidəki özəl klinikalardan birində müalicə alır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# Dünya Fikrət Əmirov musiqisinin sehrindədir

## Onun əsərləri bu gün də yaşayır, sevilə-sevilə dinlənilir

**Azəbaycanın dünya şöhrətli bəstəkarı Fikrət Əmirovun 100 illik yubileyi həm ölkəmizdə, həm də xarici ölkələrdə təntənəli şəkildə qeyd edilir. Xüsusi olaraq vurğulanmalıdır ki, görkəmli bəstəkarın 100 illik yubileyi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı var. Sərəncamda qeyd edilir ki, 2022-ci ilin noyabr ayında görkəmli bəstəkar, tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü Fikrət Məşədi Cəmil oğlu Əmirovun anadan olmasının 100 ili tamam olur.**

Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi Fikrət Əmirov rəngarəng yaradıcılıq palitrasına malik qüdrətli sənətkar kimi mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr bəxş edib. Gücünü doğma torpaqdan alan, milli zəminə bağlı bəstəkar ecazkar xalq musiqisi və muğam ənənələrini müasir musiqi texnikası ilə uğurlu şəkildə birləşdirərək, neçə-neçə dəyərli opera, balet, simfoniya, mahnı, romans və kamera-instrumental əsər meydana gətirib. Fikrət Əmirovun üslubuna xas lirik-romantik boyaların bütün əlvanlığı ilə öz əksini tapdığı bu müxtəlif janrlı sənət nümunələrində milli ruh, fəlsəfi-psixoloji dərinlik və melodik gözəllik hakimdir. Həmin əsərlər dünyanın bir sıra ölkələrindəki mötəbər konsert salonlarında məşhur orkestrlərin ifasında müvəffəqiyyətlə səslənib və müəllifinə geniş coğrafiyada şöhrət qazandırıb. Yüz illiyinin UNESCO-nun 2022-2023-cü illər üzrə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramına daxil edilməsi Fikrət Əmirov sənətinə beynəlxalq miqyasda yüksək qiymət verilməsinin təzahürüdür. Fikrət Əmirovun vətənpərvərliyə səsləyən, daim mənəvi zənginlik aşılayan və bəşəri idealları tərənnüm edən, nailiyyətlərlə zəngin irsi Azərbaycan musiqi sənəti salnaməsinin ən parlaq səhifələrindəndir". Görkəmli bəstəkarın 100 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlayıb həyata keçirmək Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, Mədəniyyət Nazirliyinə tapşırılır.

Belə tədbirlərdən biri Fransanın paytaxtı Parisdə, UNESCO-nun mənzil-qərargahının konsert zalında musiqi axşamı keçirilib. Musiqi axşamı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin və UNESCO yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə təşkil olunub. Musiqi axşamında təşkilatın baş katibinin müavini Firmin Edouard Matoko, Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev, diplomatik korpusun nümayəndələri, fransalı siyasətçilər, musiqi həvəskarları, jurnalistlər və digər şəxslər iştirak ediblər. UNESCO baş katibinin müavini Firmin Edouard Matoko çıxışında musiqinin cəmiyyətdə həmrəyliyi, birliyi, dialoqu gücləndirdiyini bildirib. O, UNESCO-nun musiqinin dəyərlərinin yayılmasındakı roluna toxunub və Azərbaycan musiqisinin bu yolda əhəmiyyətli yeri olduğunu bildirib. Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi E.Abdullayev dünya şöhrətli bəstəkar F.Əmirovun yaradıcılığı haqqında məlumat verib, bəstəkarın musiqinin demək olar ki, bütün janrlarına müraciət edərək dəyərli sənət əsərləri yaratdığını və əsərlərinin Azərbaycanın musiqi tarixinin parlaq səhifələrindən olduğunu bildirib. E.Abdullayev ölməz bəstəkarımızın şifahi ənənəli klassik musiqi janrı olan muğam dəstgahlarına müraciət edərək bu əsərləri özünəməxsus bəstəkarlıq texnikası, yaradıcı təxəyyülü ilə zənginləşdirdiyini, orkestr boyalarının əlvanlığına böyük ustalıqla nail olduğunu xüsusi qeyd edib. Musiqi axşamında Azərbaycanın Xalq artisti, dirijor Fəxrəddin Kərimovun rəhbərliyi altında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, respublikamızın Xalq artisti Fərhad Bədəlbəyli, Əməkdar artistlər - Səbinə Əsədova, Babək Niftəliyev, gənc müğənnilər Selcan Nəsibli, Orxan Cəlilov çıxış ediblər. Proqrama bəstəkarın "Azərbaycan kapriççiosu", "Gülüstan Bayatı-Şiraz", "Azərbaycan süitası", F.Əmirov ilə Elmira Nəzirovanın həmmüəllifi olduqları "Ərəb mövzuları əsasında fortepiano konserti", habelə bəstəkarın "Şeyx Sənan" (Hüseyn Cavid) tamaşası üçün yazdığı məşhur "Kor ərəbin mahnısı", "Azərbaycan elləri" vokal inciləri və digər əsərlər daxil edilib.




Fikrət Əmirov musiqisi həqiqətən də ölməz əsərlər silsiləsinə daxildir. Elə bir azərbaycanlı tapılmaz ki, "Kürd-Ovşarı", yaxud "Şur" simfonik muğamlarının sirrinə düşməsin, bu musiqi əsərlərini dinləməkdən yorulsun, "Min bir gecə" baletinin ecazkarlığına heyran qalmasın. Nəinki Azərbaycan tamaşaçısı, dünyanın yüzlərlə ölkəsinin tamaşaçıları bu misilsiz musiqiləri ayaq üstə alqışlayıb. Bu da səbəbsiz deyil. F.Əmirov dahi Üzeyir bəyin tələbəsi olub. Həmçinin görkəmli bəstəkar Boris Zeydmanın sinfində də təhsil alıb. Səhnə musiqisi sahəsində fəaliyyətinə "Ürəkaçanlar" və "Gözün aydın" musiqili komediyaları ilə başlayan Fikrət Əmirovun ən uğurlu əsərlərindən biri simli orkestr üçün yazdığı "Nizami" simfoniyasıdır. Bu simfoniya dünyanın ən məşhur dirijorlarının rəhbərliyi ilə ifa olunub. 1948-ci ildə "Şur" və "Kürd-Ovşarı" simfonik muğamlarını yazıb. Bu simfonik muğamlar Bolqarıstanın, Belçikanın, Fransanın, ABŞ-ın konsert salonlarında səsləndirilib. 1950-ci ildə dördhissəli "Azərbaycan" simfonik süitasını bəstələyən Fikrət Əmirov onun ardınca müasir mövzuda milli musiqi tarixinə ilk milli lirik opera kimi daxil olan "Sevil" operasını yazıb. Bəstəkar üç romans və müxtəlif janrda iyirmi beşdən artıq mahnının müəllifidir. 1970-ci illərdə "Nəsimi" vokal xoreoqrafik poeması, simfonik orkestr üçün "Azərbaycan qravürləri" əsərini, "Gülüstan-Bayatı-Şiraz" simfonik muğamını, "Min bir gecə" nağılları əsasında eyniadlı balet yazıb. 1984-cü ilin yanvarında "Nizami" baletini tamamlayıb.

Fikrət Əmirovun "məni bəstəkar edən Azərbaycan tarıdır" sözləri, əlbəttə, unudulmazdır. Fikrət Əmirovun atası Məşədi Cəmil musiqimizin beşiyi sayılan Şuşada doğulmuşdu, dövrünün məşhur tarzəni kimi tanınırdı. Məşədi Cəmil sonra İstanbulda professional musiqi sənətinə yiyələnib, qayıtdıqdan sonra Gəncədə yaşamağa başlayıb. Musiqi sahəsində fəaliyyətini davam etdirib. 1923-cü ildə Gəncədə ilk musiqi məktəbinin yaradıcısı da Məşədi Cəmil olub. O, məktəbə direktor təyin ediləndən sonra Üzeyir Hacıbəylinin iştirakı ilə tədris ocağının təntənəli açılışı olub. Üzeyir bəy musiqi məktəbinin tədris planlarının hazırlanması, məktəbə Moskvadan, Kiyevdən, Sankt-Peterburq ali musiqi təhsili olan müəllimlərin dəvət edilməsində Məşədi Cəmil Əmirova yaxından köməklik göstərib. 1923-cü ildə Məşədi Cəmilin "Namuslu qız" operettası Gəncədə tamaşaya qoyulub. İlk tamaşada Üzeyir bəy şəxsən iştirak edib. Belə bir mühitdə böyüyən Fikrət Əmirov öz yaradıcılığında atasının sənət ideyalarını davam etdirib. Eyni zamanda, o, böyük sənət yoluna atasının yaxın dostu, dahi Üzeyir bəyin xeyir-duası ilə qədəm qoyub. Fikrət Əmirov da gənc bir tarzən kimi Gəncədə Dövlət Filarmoniyasının ilk solistlərindən olub. Bakıya gələrək Dövlət Konservatoriyasına daxil olan Fikrət Əmirov böyük bəstəkar və pedaqoqun qayğısını hər zaman üzərində hiss edib. Bu barədə Fikrət Əmirovun "Musiqi düşüncələri" kitabında maraqlı bir xatirəsi də var. O yazır: "1938-ci ildə Bülbül anam Dürdanə xanımı Bakıda görüb tapşırmışdı ki, Fikrəti göndər, gəlsin Konservatoriyada oxusun. Bülbülün dediyi kimi də oldu. Mən Bakıya gəldim. Konservatoriyada kiçik bir yoxlamadan sonra Bülbül məni Üzeyir bəyin kabinetinə apardı və dedi: "Üzeyir bəy Məşədi Cəmilin oğludur. Bəstəkar olmaq istəyir. Üzeyir bəy elə o andaca məni çox istiqanlıqla, böyük məhəbbətlə və əsil ata qayğısı ilə qarşılayıb, əsərlərimi dinlədi. İlk yazdıqlarıma müsbət rəy bildirərək "hə, sən əsl bəstəkar olacaqsan" dedi. O gündən də məndən öz diqqət və qayğısını əsirgəmədi". Fikrət Əmirov musiqisinin mayasını millilik təşkil edirdi. Buna görədir ki, görkəmli bəstəkar muğamla simfonik musiqinin sintezini çox məharətlə yaradıb. Bəstəkarın bütün əsərlərində millilik və Azərbaycan kimliyi aparıcı xətt təşkil edib. Onun xalq tərəfindən sevilməsi, illər keçsə musiqisinin də, özünün də daim gənc qalmasının əsas səbəbi budur. Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə bəstəkarın xatirə günü tədbirində çıxışı zamanı bildirib ki, Fikrət Əmirov, Üzeyir Hacıbəyli və Qara Qarayev üçlüyünün nümayəndəsidir. Fikrət Əmirovun simfonik əsərlərini dünyanın dahi dirijorları repertuarlarına daxil edib, özləri dirijor pultu arxasına keçərək Əmirov musiqisini səsləndiriblər. Bu gün də bəstəkarın simfonik muğamları dünya simfoniyasının ən gözəl nümunələri kimi daim ifaçıların diqqətini cəlb edir. Bu əsərlər Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasında xüsusi əhəmiyyət kəsb edir. Onun əsərləri bu gün də yaşayır, sevilə-sevilə dinlənilir. Bu mənada o, xoşbəxt insandır. Azərbaycan xalqı da xoşbəxt xalqdır ki, dünya şöhrətli bəstəkara malikdir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "XTQ cənub istiqamətində istənilən tapşırığı icra edə bilər"

## "Növbəti aktiv döyüş əməliyyatlarının başlayacağını düşünmürəm"

### Üzeyir Cəfərov: "Azərbaycan sadəcə işğaldan azad edilən ərazilərin bərpası, yenidən qurulması üçün çalışır"



**Müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il üçün döyüş hazırlığı planına əsasən, noyabrın 2-də Azərbaycanın cənub sərhədlərinə yaxın ərazilərdə Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təlimi başlayıb.**

Təlimlər Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-leytenant Hikmət Mirzəyevin rəhbərliyi ilə keçirilir. Hazırda xüsusi təyinatlıların təlimi davam edir.

Qeyd edək ki, sosial şəbəkələrdə XTQ təlimlərini oktyabrın 17-dən İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) qoşunları Azərbaycanla sərhəddə keçirdiyi üç günlük hərbi təlimlərlə cavab kimi qiymətləndirənlər var.

**XTQ təlimlərini "Şərq"ə dəyərləndirən hərbi ekspert Üzeyir Cəfərov bildirib ki, təlimlər cənub qonşumuzun sərhədlərimizdə əzələ sərgilədiyi dövrə təsadüf edir. Lakin bu plan üzrə reallaşan təlimlərdir:**

"Təlimləri müdafiə naziri Zakir Həsənovla birgə Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı Xüsusi Komandanlıq Qrupunun komandanı general-polkovnik Bəxtiyar Ersay da izləyib.

Növbəti aktiv döyüş əməliyyatlarının başlayacağını düşünmürəm. Azərbaycan sadəcə işğaldan azad edilən ərazilərin bərpası, yenidən qurulması üçün çalışır.

Hər halda cənub sərhədindəki təlimlər xüsusi siyasi əhəmiyyət daşıyır. Bölgədə bəzi dövlətlər, şimal, cənub qonşumuz vəziyyəti gərginləşdirmək üçün əllərindən gələni əsirgəmir. Stabilliyin bərqərar olmasında istəkli deyillər. Hərbi tərəfdən də, Azərbaycan sərhədləri çərçivəsində üzərinə düşən nə varsa, yerinə yetirəcək.

XTQ-lər 2020-ci ildə çoxlarının alınmaz hesab etdiyi Şuşanın sıldırım qayalarını rahatlıqla adlayıb, döyüş tapşırığını gerçəkləşdirdilərsə, cənub istiqamətində, ümumiyyətlə sərhədboyu istənilən tapşırığı yerinə yetirmək gücündədirlər".

**Aygün Tahir**

# IX siniflər üçün buraxılış imtahanının yeni modeli 2024-cü ildən keçiriləcək




**Dövlət İmtahan Mərkəzində (DİM) 2023-cü ildə ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə keçiriləcək buraxılış imtahanında xarici dil fənlərindən istifadəsi planlaşdırılan yeni imtahan modelinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin nümayəndələri ilə birlikdə müzakirəsi aparılıb.**

DİM-dən verilən məlumata görə, modelin strukturunun fənn kurikulumunun müəyyən etdiyi məzmun xətlərinə aid alt standartlarının tələblərinə uyğun olması qeyd olunmuş, bilik və bacarıqların qiymətləndirilməsində yeni yanaşma kimi onun tətbiqi məqsədə müvafiq hesab edilib. Müzakirə nəticəsində yeni imtahan modelinin ümumtəhsil müəssisələrində aprobasiyadan keçirilməsi, ictimaiyyətə təqdim edilməsi, onlayn sınaq imtahanının təşkili və 9-cu siniflər üçün DİM tərəfindən hazırlanmış "Qiymətləndirmə kitabçası"nda yeni modelə uyğun tapşırıq nümunələrinin verilməsi qərara alınıb.

Qeyd edilənlərin həyata keçirilməsi üçün uzun müddət tələb olduğundan, qarşılıqlı razılaşma əsasında yeni imtahan modelinin 2024-cü ildən başlayaraq buraxılış imtahanında tətbiq edilməsi nəzərdə tutulur.

2023-cü ildə isə ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı ötənilki imtahan modeli əsasında keçiriləcək.

# BDU tələbələrindən Zəfər trendi




**Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin 4-cü kurs tələbələri Vətən müharibəsinin iki illiyi münasibətilə sosial şəbəkələrdə Zəfər trendi formalaşdıracaq.**

"Şərq" xəbər verir ki, marafonun məqsədi "Gəncliyin Zəfər sədası" adlı vahid şəbəkə yaratmaq, onun vasitəsilə şəhid və qazilərin əzmi nəticəsində əldə olunan 44 günlük müharibəni həm respublika daxilində, həm də dünya miqyasında geniş təbliğ etmək və unutdurmamaqdır.

Layihəyə Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının professor və müəllim heyəti rəhbərlik edir. Marafon üzvləri sosial şəbəkə ( Tvitter, İnstaqram, Feysbuk ) üzərindən konkret heşteqlərlə müxtəlif ölkələrin gündəminə düşüb, dünyaya Azərbaycanın qələbə səsini çatdırmağa çalışacaq.

Noyabrın 6, 7, 8-i tarixlərində platformanın üzvləri həmrəylik sərgiləyərək sosial şəbəkələrdə aşağıdakı heşteqlərlə paylaşımlar edəcək:

1. *#Zəfərinamdanbaşlayır*
2. *#Zəfərfədakarlıqlaqazanılır*
3. *#Zəfərqorumaqlayaşadılır*

Platformanın üzvləri bütün gəncləri sosial şəbəkələrdə fəallıq göstərməyə çağırır.

Gənclərin təşəbbüsü ilə təşkil edilən 3 günlük onlayn marafonun böyük maraq doğuracağı düşünülür.

Sosial şəbəkələrin ingilis dili istifadəçiləri üçün aşağıdakı heşteqlərin əlavə edilməsi tövsiyə olunur:

*#victoriousAzerbaijan*
*#Victoryday*
*#Trustinvictory*
*#Sacrifaceforvictory*
*#KarabakhisAzerbaijan*
*#8novemberisvictoryday*
*#VictorydayofAzerbaijan*
*#ShushaisAzerbaijan*
*#Azerbaijanitruths*

**Aygün**

# Bayramla əlaqədar Bakı-Gəncə qatarlarının sayı artırılıb



**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin bütün strukturları 8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışacaq.**

Qurumdan verilən məlumata görə, bununla bağlı Bakı-Gəncə-Bakı istiqamətində artan sərnişin tələbatını nəzərə alaraq, xətt üzrə iki əlavə reys təyin edilib.

Əlavə olunan bir reys 6 noyabr tarixində saat 08:15-də Bakıdan yola düşəcək və Gəncəyə saat 11:55-də çatacaq. İkinci əlavə reys 9 noyabr tarixində saat 17:30-da Gəncədən yola düşəcək və saat 21:05-də Bakıya çatacaq.

Qeyd edək ki, Bakı-Gəncə-Bakı sürətli sərnişin qatarının cari qrafikində heç bir dəyişiklik edilmir. Yəni, hər gün saat 08:45-də Bakıdan yola düşən qatar saat 12:25-də Gəncəyə, Gəncədən isə saat 18:00-da yola düşən qatar saat 21:35-də Bakıya çatır.

*Xatırladaq ki, Bakı-Sumqayıt-Bakı elektrik qatarları isə bayram günlərində istirahət günlərindəki qrafikə uyğun hərəkətdə olacaq.*

# Gizli inflyasiya gedir

## Sərnişindaşımada ciddi qiymət artımına şahid olacağıq

**Azərbaycanda 2023-cü il ərzində orta aylıq pensiya məbləği 52,6 manat və ya 14,2 faiz artaraq 422 manat olacağı proqnozlaşdırılır.**

Əmək haqlarının, pensiyaların artırılmasının bazardakı bahalaşmaya adekvat olmadığını vurğulayan ekspertlərə görə, hökumətin pensiya artımı siyasəti heç də ölkədəki inflyasiya qarşısında aztəminatlı insanları qorumağa kifayət etmir. Mütəxəssislər hesab edir ki, hökumətin pensiyaları orta əmək haqqının artım faizinə görə indeksləşdirməsi düzgün yanaşma deyil.

Bu üsul qiymət artımı qarşılığında heç də əhalinin gəlirlərini əhəmiyyətli dərəcədə yüksəltmir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli də hesab edir ki, əslində bu, artım deyil, əhaliyə verilən kompensasiyadır. İnflyasiyadan danışılır, bunun səbəblərindən də danışmaq lazımdır. Bunu yaradan amillər sırasında monopoliya var, amma adı çəkilmir. Azərbaycanda monopoliyanın mövcudluğu süni bahalaşmanın yaranmasına səbəb olur.



**İqtisadçı-ekspert Asif İbrahimovun "Şərq"ə açıqlamasına görə, ilin əvvəlindən bu yana bir çox xidmət sahələri və ərzaq məhsullarının qiymətində kəskin bahalaşma müşahidə edilir:** "Bəzi sahələrdə inflyasiya cütrəqəmlidir. Dənli bitkilər, şəkər çuğunduru, yağ məhsullarının qiyməti iki dəfədən çox bahalaşıb. Bu da daxili və xarici faktorlardan qaynaqlanır. Qiymət əmələgəlmə prosesi məhsulun ərsəyə gəlməsində çəkilən xərclər hesabına olur. Sahibkarın mənfəəti də nəzərdə tutulur. Azərbaycanda hazırda bir çox məhsulların tədarükü idxaldan asılıdır. İstər yağ, istər şəkər çuğunduru, istərsə də dənli bitkilər xaricdən gətirilir. Azərbaycanda bu sahədə müəyyən sıxıntılar mövcuddur. Pandemiyanın yaratdığı fəsadlar, daşınma, logistika, əlavə rüsumlar məhsulların qiymətinin artmasına səbəb olur.

Sərnişindaşıma sahəsində hələlik qiymət artımı müşahidə edilməsə də, gizli inflyasiya gedir. Bu isə çox təhlükəli haldır: birdən-birə fakt qarşısında qalırsan.

Yanacaq artıb, ehtiyat hissələrinin qiyməti bahalaşıb. Çox güman ki, sərnişindaşımada ciddi qiymət artımına şahid olacağıq".

Ölkədə inflyasiya prosesinin indeksasiyası aparıldığını, müvafiq şəkildə pensiyaların və maaşların artırılmasının təmin edildiyini vurğulayan ekspert deyib ki, əsas məsələ onun reallığı əks etdirməsidir: "Artım real xərcləri əhatə edə biləcək qədər olmalıdır. İndiki halda isə 14,2 faizlik artım bazar qiymətləri ilə adekvat deyil. Hesab edirəm ki, bu sahədə əlavə tədbirlərin görülməsinə ehtiyac var".

**Şəymən**

# Bakıda Azərbaycan-Türkiyə biznes forumu keçirilib




## Forumda qida, tikinti, nəqliyyat, logistika, sənaye, İKT, tekstil və digər sahələrdə fəaliyyət göstərən sahibkarlar iştirak edib

**Dünən Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın Azərbaycana səfəri çərçivəsində Heydər Əliyev Mərkəzində Azərbaycanın İqtisadiyyat və Türkiyənin Ticarət nazirliklərinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Türkiyənin Xarici İqtisadi Əlaqələr Təşkilatının (DEİK) təşkilatçılığı ilə Azərbaycan-Türkiyə biznes forumu keçirilib. Forumda iki qardaş ölkənin hökumət nümayəndələri, qida, tikinti, nəqliyyat, logistika, sənaye, İKT, tekstil və digər sahələrdə fəaliyyət göstərən sahibkarlar iştirak edib.**

Forumda çıxış edən Azərbaycanın Baş naziri Əli Əsədov Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, sıx əməkdaşlıq və strateji müttəfiqlik münasibətlərinin hər iki dövlət başçısının yorulmaz səyləri nəticəsində bu gün ən yüksək zirvədə olduğunu vurğulayıb. Baş nazir ölkəmizdə yaradılan əlverişli investisiya mühiti barədə məlumat verərək bildirib ki, hazırda Azərbaycanda 5 minə yaxın Türkiyə şirkəti qeydiyyata alınıb və bu, xarici dövlətlər arasında ən yüksək göstəricidir. Qeyd edilib ki, biznes dairələrimizin birgə fəaliyyəti və sıx əməkdaşlığı Azərbaycan-Türkiyə münasibətlərinin daha da dərinləşməsinə və ölkələrimiz arasında ticarət dövriyyəsinin, investisiya qoyuluşunun artmasına töhfə verəcək. İqtisadi, ticarət, nəqliyyat və enerji sahələrində əməkdaşlığımız qarşılıqlı əlaqələrin inkişafında mühüm rol oynayır.

Qeyd edilib ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı Qələbəsindən sonra ikitərəfli əməkdaşlığımız üçün yeni imkanlar açılıb. Hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işləri geniş vüsət alıb və Türk şirkətləri bu işlərdə yaxından iştirak edirlər.

Baş nazir iqtisadi əlaqələrin inkişafında Azərbaycan-Türkiyə Hökumətlərarası Komissiyasının səmərəli platforma olduğunu diqqətə çatdırıb və qeyd edib ki, bu gün Komissiyanın Bakıda keçirilmiş 10-cu yubiley iclasında ortaq maraq doğuran bir çox sahələr üzrə məsələlər müzakirə edilib.

Türkiyənin Vitse-prezidenti Fuat Oktay biznes forum iştirakçılarını salamlayaraq Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib, qardaş xalqlarımızı möhkəm mədəni-tarixi əlaqələrin birləşdirdiyini vurğulayıb. Vitse-prezident Azərbaycan-Türkiyə əlaqələrinin yüksək səviyyədə olduğunu, əməkdaşlığın genişləndirilməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, aparılan danışıqların mühüm əhəmiyyətini qeyd edib. Diqqətə çatdırılıb ki, Azərbaycan-Türkiyə iqtisadi-ticarət əməkdaşlığı uğurla inkişaf edir, qarşılıqlı investisiya qoyuluşları həyata keçirilir, hər iki ölkənin iştirakı ilə enerji və nəqliyyat sahəsində qlobal və regional əhəmiyyətli meqalayihələr reallaşdırılır. Fuad Oktay biznes forumun iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində əhəmiyyətli olacağını vurğulayıb, sənaye, kənd təsərrüfatı, müdafiə sənayesi və digər sahələrdə əlaqələrin inkişafı üçün geniş potensialı qeyd edib, biznes dairələrini daha fəal əməkdaşlığa, birgə investisiyaların yatırılmasına dəvət edib.

Forum çərçivəsində hər 2 ölkənin dövlət qurumları və sahibkarlıq subyektləri arasında əməkdaşlığa dair 14 sənəd imzalanıb.

Biznes forum iş adamları arasında ikitərəfli görüşlərlə davam edib, sahibkarlar əməkdaşlığın genişləndirilməsi və yeni əlaqələrin qurulması məsələlərini müzakirə ediblər.

# Panik atak daha çox qadınlarda müşahidə olunur

## Qəfil başlayan qorxu adətən ilk 10 dəqiqə ərzində pik həddə çatır

**Psixoloq Elmir Əkbər AzTV-nin "Çıxışa doğru" proqramında pandemiya dövründə və sonra panik atak ilə müraciət edənlərin sayının fantastik surətdə artdığını deyib.**

Onun sözlərinə görə, panik atak zamanı stres zənciri işə düşür, adrenalinin təsirindən təngnəfəslik yaranır: "Oksigen səviyyəsi düşür. Bir tərəfdən də koronavirusdan irəli gələn tənəffüs problemi də insanları ölümə aparırdı. İnsanlar panik atakı, həyəcanı idarə edə bilsələr, ölüm halları azalacaq.

Artıq insan virusun üçüncü dalğasından sonra vəziyyətə rasional yanaşır. Gigiyenik normalar o qədər faydalıdır ki, virus oldu-olmadı bu qaydalara ciddi riayət edilməlidir".

**Klinik-psixoloq Leyla Məmmədova "Şərq"ə açıqlamasında deyib ki, panik atak, real təhlükə olmadığı halda insanın özünü təhlükəli vəziyyətdə hiss etməsinə, həyəcanla reaksiya verməsinə və qorxu hiss etməsinə səbəb olan psixoloji vəziyyətdir:** "Anidən meydana gələn və zaman-zaman təkrarlanan bu vəziyyət insanın özünü sıxıntı içində tapmasına səbəb olur. Bir çox insanın həyatında bir və ya iki dəfə panik atak keçirməsi normal sayılsa da, təkrarlanan panik atakları və bu təcrübəni yenidən yaşayacaqların düşünmədən dura bilməməsi panik pozğunluğu olaraq təyin olunur. Panik pozğunluğu olan xəstələr hər bir insanda ola biləcək fiziki simptomları zehni olaraq səhv şərh edə bilərlər. Məsələn, həyəcanlı olduğumuz zaman ürəyimiz tez döyünür, ürək döyüntülərimiz olur. Biz bunu infarkt kimi qəbul etmirik, çünki bu, həm zehni, həm də fiziki olaraq təbii və normal bir ruh halıdır. Ancaq panik pozğunluğu xəstələri ürək döyüntüsünü "infarkt", tənəffüs çətinliyini "boğularam", başgicəllənməni "huşumu itirəcəm" kimi zənn edir və nəticədə son dərəcə dözülməz bir narahatlıq hiss edirlər. Yəni bunu həyati bir vəziyyət və ölüm təhlükəsi kimi qəbul edirlər. Ancaq bu, hər kəsin başına gələ biləcək normal bir bədən əlamətidir. Bu yüksək səviyyəli narahatlıq onların həyatlarını məhdudlaşdırmasına, sosial və peşə cəhətdən mənfi təsirlərə məruz qalmasına səbəb olur. Xüsusilə, hər hansı bir mənfi vəziyyətdə kömək ala bilməyəcəklərini düşündükləri qapalı və izdihamlı mühitlərdən uzaq dururlar. Obsesif kompulsif pozğunluqlar qrupunda olan narahatlıq pozğunluqları psixiatrik bir xəstəlikdir. Təkrarlanan, qeyri-ixtiyari düşüncələr var ki, onları idarə etmək çətin və insanı narahat edir.



Panik atakın ən böyük xüsusiyyəti onun nə vaxt başlayacağını və nə vaxt bitəcəyini təxmin edə bilməyin mümkün olmamasıdır. Qəfil başlayan qorxu adətən ilk 10 dəqiqə ərzində pik həddə çatır və orta hesabla 15 dəqiqə ərzində sona çatır". Psixoloqun sözlərinə görə, qadınlarda kişilərə nisbətən daha çox müşahidə olunur. Bir çox digər psixi pozğunluqlarda olduğu kimi, panik atakın da dəqiq səbəbi tam aydınlaşdırılmayıb: "Bununla belə, vəziyyətin həyatda travmatik və ya çox stresli bir dövrlə, məsələn, itkin düşməsi və ya beyindəki neyrotransmitter balanssızlığı və ya oxşar amillərlə əlaqəli olduğu düşünülür.

Panik atakın əsas əlaməti ölüm və dəli olma qorxusudur. Atak zamanı insanın ürək döyüntüsü artır və nəfəs darlığı yaranır. Eyni anda adamı həm isti basır, həm titrəməsi olur. Bir nec?ə dəfə bu vəziyyətdə olan insan panik atakın təkrarlanmasından qorxmag?a bas?layır, onun yaxınlas?masını hiss edir, daim narahat, əsəbi olur, qorxur, depressiyaya du?s?u?r. Panik atakdan əziyyət c?əkən insanlar psixoloji rahat şəraitdə yaşamalı, streslərdən uzaq olmalı, kifayət qədər yatmalı və dincəlməli, fiziki aktiv olmalı, normal qidalanmalıdır.

> "Qabaqlayıcı tədbir görmək üçün immun sistemini möhkəmlətmək və depressiyadan qorunmaq çox vacibdir"

Panik hücumu əsnasında insanların öldüklərinə, havalandıqlarına, ya da davranışlarının nəzarət altından çıxdığına dair heç bir tibbi məlumat yoxdur. Bu səbəblə panik atak keçirdiyiniz zaman bunun ölümcül olmadığını, havalanmağa gətirib çıxarmayacağını, hiss etdiyiniz narahatlığın keçəcəyini düşünməlisiniz.

Panik atakda tutmaların tezliyi, intensivliyi çoxdursa, insan bununla mübarizə aparmaqda çətinlik çəkir. İlkin mərhələdə tutmaların sayından, ağrıların dərinliyindən asılı olaraq ilkin mərhələdə medikamentoz müalicə təyin olunur, amma əsas psixoloji dəstəkdir, çünki psixoloji cəhətdən bu məsələ çözülməsə, medikamentoz müalicə bitən kimi ataklar yenə davam edəcək, cünki bu tutmaları aradan qaldırmaq üçün mütləq biz tətikləyicini tapmalıyıq, sonra bu tətikləyici nəyin siqnalıdısa onu tapıb aradan qaldırmalıyıq. Bir çox texnikalar var ki, biz individual olaraq insanlara məsləhət görürük. Amma tutaq ki, nəfəs texnikaları əksər insanlara eyni müsbət təsiri göstərə bilir".

**L.Məmmədova deyib ki, qarşısı alınmadıqca atakların get-gedə daha sürətlə, daha intensiv baş verməsi olur. Get-gedə bütün zamanı alır, xronikiləşir, daha pisi isə insan bu vəziyyətə uyğunlaşır. Və digər xəstəliklərin başlanmasında katalizator rolunu oynayır:** "Bir çox nevrotik xəstəliklərin başlanmasına, xronikiləşməsinə, sinir sisteminin pozulmasına səbəb olur. Psixosamatik ağrılar, nəbzin yüksəlməsi, qan dövranının pozulması, qan təzyiqinin dəyişilməsi və s. Və bu halları hiss edən insanların mütəxəssisə müraciət etməsində fayda var".

COVİD 19 pandemiyasının təsirinə gəldikdə isə psixoloq hesab edir ki, pandemiya dövrü ilə əlaqədar olaraq bir çox həssas insanlar panik atak keçirməyə başladılar. Onlar alışmadıqları bir vəziyyətlə üzləşiblər - öz sağlamlıqlarını qorumaq üçün bütün gün evdə oturaraq bayıra çıxmır, maska taxmağa məcbur olurdular: "İnsanlar pandemiya müddətində uzun müddət ərzində sosial həyatdan təcrid olundular. Bu da şübhəsiz ki, bəzi insanların psixologiyasından təsirsiz ötüşmədi. İndiyədək heç bir psixiatrik xəstəliyi olmayan insanlarda belə panik atak və depressiya şikayətləri nəzərəçarpacaq dərəcədə artıb. Əvvəllər panik atak xəstələri bizə ürək döyüntüsü və huşunu itirmə şikayətləri ilə müraciət etdiyi halda, pandemiyadan sonra xəstələr nəfəs ala bilməmək şikayəti ilə müraciət edirlər.

Pandemiya bitsə də, hələ də bu qorxunu yaşayan, virusun yenidən artacağını düşünən insanlar var. Bütün bu baş verənlər psixologiyaya təsirsiz ötüşmür. Bu isə öz növbəsində, müəyyən həyəcan pozuntuları, gərginlik və depressiya yaradır.

Panik ataka məruz qalanlar özləri ilə təzyiqölçən aparat və su gəzdirir, infeksiyaya yoluxaraq öləcəklərindən ehtiyat edir və daim bu barədə düşünürlər. Bu hal xəstəliyə yoluxmaq qorxusu yaşayan və kökündə ölüm qorxusu olan panik atak narahatlığından əziyyət çəkənlərə xüsusilə ağır təsir göstərir. Onlar hələ də yaşadıqları evi, pal-paltarlarını vaxtaşırı spirtlə dezinfeksiya edir, əllərini tez-tez və uzun müddət yuyurlar. Bu, onlarda təmizlik obsessiyası yaradır. Həmin şəxslərə elə gəlir ki, əgər bunu etməsələr, virus onlara yoluxacaq. Halbuki, hər şeyə müsbət tərəfdən yanaşmağı bacarmaq lazımdır. Özünü daim neqativ fikirlərlə yükləmək əvəzinə pozitiv fikirlərə üstünlük verilməlidir ki, əhval-ruhiyyənin aşağı düşməsinə mane olsun. Virusa yoluxacağı, xəstəliyi tutub öləcəyi barədə düşünmək əvəzinə xəstəliyin varlığını qəbul etmək və ona yoluxacağı halda sağalacağı barədə düşünmək lazımdır. Araşdırmalar göstərir ki, psixoloji cəhətdən neqativ yüklənmək koronavirusun orqanizmdəki təsirinin artmasına səbəb olur. Qabaqlayıcı tədbir görmək üçün immun sistemini möhkəmlətmək və depressiyadan qorunmaq çox vacibdir".

**Şəymən Bayramova**

ŞƏRQ Müstəqil ictimai-siyasi qəzet


# Cəmiyyət də biganədir, icra orqanları da...

## Rayonlarda erkən nikahların qarşısını almaq mümkün olmayıb




**"Daha bir toyun qarşısı alındı". Bu sözləri Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə deyib. Onun sözlərinə görə, Göyçay rayonu Çərəkə kəndində 14 yaşlı qızın sabah olacaq toyu ilə bağlı "Facebook" üzərindən Göyçay Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanladığı müraciət əsasında icra hakimiyyəti müvafiq komissiyası və Göyçay Polis şöbəsinin əməkdaşları tərəfindən erkən nikah faktı araşdırılıb və fakt təsdiqini tapıb:** "Hazırda ailə polis şöbəsinə dəvət edilib, onlarla profilaktik söhbətlər aparılır. Yenə cahil ailə buna toy yox, nişan adı qoyub, lakin bu, doğru deyil. Bu toy idi, sabah qızı evləndirib Ağsuya göndərəcəkdilər. Hansı maşında aparılacaqdı, onu da bilirdim. Əsas məqsədimiz bu izdivacın dayandırılması, evlilik yaş həddinə qədər bunun cinayət olmasını bir daha diqqətə çatdırmaqdır. 18 yaşdan sonra Allah bəxtini versin,xoşbəxt olsun!!!".

**Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu azyaşlı qızların ərə verilməsi poblemi ilə bağlı humanitar siyasəti dəyişməyin zamanı gəldiyini deyib.**

Bu mövzuda dəfələrlə müzakirələr aparılıb, maarifləndirmə, təbliğat işləri görülməsinə rəğmən bütün bunların bir nəticə vermədiyini vurğulayan N.Cəfəroğlu hesab edir ki, bu işlər lazım olan səviyyədə görülmür, lazım olan işlər aparılmır: "Problemin kökündə təkcə iqtisadi faktor dayanmır. İllərdir ki, bu problemlə mübarizə aparırıq. Əlbəttə ki, məsələ ilə bağlı qanun var, lakin həmin qanunlar yetərincə işlədilmir. Bütün bunlar qanun, bələdiyyə, polisin gözü qarşısında baş verir. Daha bir məsələ, cəmiyyətin biganəliyidir. Erkən nikahların baş verdiyi yerdə camaat, əhali buna hazırlanmalıdır, polislərlə, bələdiyyələrlə, eyni zamanda ata-analarla, məktəblərlə ayrıca işlər aparılmalıdır. Bütün bunlar kompleks şəkildə təşkil olunmalıdır. Bu gün icra hakimiyyətləri yanında yeniyetmələrlə iş qurumu, bu problemlə bağlı səlahiyyətli olan bələdiyyələr var. Amma onların heç biri işləmir. Xatırlayıram ki, yerlərdə bu məsələ ilə bağlı işlər aparanda biz mollalarla da söhbətlər edirdik. Bildirirdik ki, hansısa yeniyetmə qıza din kəbini kəsilərsə, erkən nikaha cəlb olunarsa, bunun məsuliyyətini siz çəkəcəksiniz və sairə. Bu cür işlər görülməlidir. Bir sözlə, qanuna tabe olub, qanunu işlətmək lazımdır. Kənd məktəblərində monitorinqlər aparmışıq. Məlumatınız varmı ki, kənd məktəblərində qızlar neçənci sinifdən məktəbə getmir? 3-4-cü sinifdən. Valideynlər qızlarının 3-cü sinifdən sonra məktəbə getməsinə icazə vermir. Doğrudur, sovet dövrünü heç birimiz sevmir, onu təbliğ etmirik. Amma baxın, o dövrdə hansı valideynin hünəri var idi ki, qızının məktəbə getməsinə icazə verməsin. Buna Təhsil Nazirliyi diqqət etməlidir ki, necə olur ailələr qızlarını aşağı sinifdən məktəbdən təcrid edir, onların təhsil almaq hüququnu əlindən alır? Bütün bu problemlər ortalığa çıxmalıdır".

**Şəymən**

## Temperatur 5-8 dərəcə enəcək

### Çaylarda sululuğun artacağı ehtimalı var



**Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-8° aşağı enəcək.**

Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında Noyabrın 6-dan 7-si səhərədək şimal-qərb küləyinin 15-20 m/s, arabir 23-28 m/s, 6-da səhər yarımadanın bəzi yerlərində arabir 30 m/s-dək güclənəcəyi, bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-8° aşağı enəcək.

Azərbaycanın rayonlarında noyabrın 5-i axşam şimal və qərb rayonlarından başlayaraq 8-i gündüzədək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Qərb küləyi 6-dan 7-si səhərədək arabir 15-20 m/s, ayrı-ayrı yerlərdə arabir 23-28 m/s-dək güclənəcək.

*Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-8° aşağı enəcək. Çaylarda sululuğun artacağı ehtimalı var.*

# Çin liderdir

## Oyuncaq ixracının həcmi sürətlə artır

**Dünyanın ən böyük oyuncaq istehsalçısı və ixracatçısı olan Çinin 2022-ci ilin ilk səkkiz ayında oyuncaq ixracı əvvəlki ilin eyni dövrünə görə yüzdə 20,2 artaraq 31 milyard 680 milyon dollara çatıb.**



Çin dünyanın ən böyük oyuncaq istehsalçısı və ixracatçısıdır. 2016-2021-ci illər arasında Çinin oyuncaq ixracı ardıcıl 5 il artıb. Bildirilir ki, hazırda qlobal bazarlardakı oyuncaqların 70 faizindən çoxu Çindən göndərilir.

Baş Gömrük İdarəsinin açıqladığı məlumatlara görə, Çinin oyuncaq ixracat həcmi yanvar-avqust ayları arasında illik yüzdə 20,2 artaraq 31 milyard 680 milyon dollara çatıb.

Çində istehsal olunan oyuncaqlar müxtəlif ölkələrə, o cümlədən ABŞ, Yaponiya və Böyük Britaniyaya göndərilir.

Məlumata görə, ilin ilk səkkiz ayında Çindən ABŞ-a oyuncaq ixracatı ötən ilin eyni dövrü ilə müqayisədə 27,2 faiz artıb.

Eyni dövrdə Çinin Meksikaya oyuncaq ixracı yüzdə 40, Yaponiyaya isə 32,3 faiz artıb.

Çin Oyuncaq və Uşaq Məhsulları Assosiasiyasının direktoru Liang Mei, "Sənaye klasterlərinin inkişafı vasitəsilə Çinin oyuncaq sənayesində yüksək səmərəlilik və qənaətcillik kimi üstünlüklərə malik hərtərəfli sənaye zənciri yaradılıb" deyib.

Çinin cənubundakı Quandun əyalətinin Şantou şəhərində yerləşən Çenxay bölgəsi "Çinin oyuncaq paytaxtı" adlanır. Burada istehsal olunan oyuncaqlar 150-dən çox ölkə və bölgəyə satılır.

Yerli oyuncaq şirkətinin rəsmisi Yang Yusheng, "İlin birinci yarısında ixracat həcmimiz illik müqayisədə 20 faizdən çox artaraq 740 milyon yuana (təxminən 104 milyon dollar) çatıb" deyə bildirib.

**Turan**



## Sumqayıt Teatrında maaşların 8 ay gecikməsi yalandır

### Nazirlikdən bildirilib ki, əməkhaqqının ödənilməsində 2 gün gecikmə baş verib

**Sumqayıt Dövlət Dram Teatrında maaşların 8 aydır gecikməsi ilə bağlı yayılan məlumatlar həqiqəti əks etdirmir. Bu barədə Mədəniyyət Nazirliyindən bildirilib.**

Qeyd olunub ki, oktyabr ayı üçün əməkhaqqının ödənilməsində 2 gün gecikmə baş verib, 3 noyabr tarixində ödənilib.

"Hazırda teatrda direktor vəzifəsinin səlahiyyətlərini müvəqqəti olaraq teatrın direktor müavini Vidadi Məmmədov icra edir. Direktor vəzifəsinə namizədlərlə bağlı araşdırmalar davam edir, yeni namizəd təyin olunanda mətbuata məlumat veriləcək", - məlumatda vurğulanır.

*Qeyd edək ki, bir neçə gün öncə Sumqayıt Dövlət Dram Teatrının aktyor heyəti mədəniyyət naziri Anar Kərimova videomüraciət etmişdi. Müraciətdə heyətinin maaşının gecikməsi və ümumiyyətlə az olması barədə şikayət var idi.*

## Qaxda 17 yaşlı qız qətlə yetirilib

**Qaxda 17 yaşlı qız kirayə yaşadığı evdə qətlə yetirilib. APA-nın Şimal-qərb bürosunun məlumatına görə, hadisə bu gün axşam saat 18 radələrində şəhərin Cavanşir Rəhimov küçəsi ev 5 ünvanında baş verib.**

Həmin evdə kirayə yaşayan 2005-ci il təvəllüdlü Albina Papiaşvili Aliqoşayevina naməlum şəxs və ya şəxslər tərəfindən bıçaqlanaraq qətlə yetirilib.

Meyit müayinə edilməsi üçün Məhkəmə Tibbi Ekspertiza və Potoloji Anatomiya Birliyinin Qax rayon şöbəsinə təhvil verilib. Hazırda qətli törədən şəxs və ya şəxslərin axtarışı davam edir.

## Kürdəmirdə ağır yol qəzası baş verib, xəsarət alanlar var



**Kürdəmirdə ağır yol qəzası baş verib, xəsarət alanlar var. "Report"un Yuxarı Şirvan bürosu xəbər verir ki, hadisə Bakı-Qazax yolunun rayonun Şilyan kəndi ərazisindən keçən hissəsində qeydə alıb.**

Belə ki, "Mercedes" markalı iki avtomobilin toqquşması nəticəsində rayonun Şilyan kənd sakini, 7 yaşlı Mecidova Arzu Vidadi qızı, Bakı sakini 9 yaşlı Məcidov Məcid İsmayıl oğlu, və Bakı sakini, 12 yaşlı Ağayeva Rüqəyya Zaur qızı müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Yaralılar dərhal təcili tibbi yardımın köməyi ilə Kürdəmir Rayon Mərkəzi Xəstəxanasına aparılıblar.

## Zaqatala sakini tanışını içki şüşəsi ilə vuraraq öldürüb

**Zaqatala rayonunda qətl törədilib. Zaqatala rayon prokurorluğundan verilən xəbərə görə, noyabrın 4-də Zaqatala rayonunun Fındıqlı kəndi ərazisində 1970-ci il təvəllüdlü Elxan Xəlilovun öldürülməsi barədə prokurorluğa məlumat daxil olub.**

Aparılmış araşdırmalarla zərərçəkmişin tanışı, 1952-ci il təvəllüdlü Qriqoriy Burqandinovun şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı spirtli içki şüşəsi ilə baş nahiyəsinə xəsarət yetirərək Elxan Xəlilovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Zaqatala rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Qriqoriy Burqandinov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.



## Pilot olacaq

### Nəvəsi Arif Quliyevin arzusunu gerçəkləşdirdi

**Mərhum Xalq artisti Arif Quliyevin oğlu Rövşən Quliyev və nəvələri “ATV səhər” proqramını evlərində qonaq ediblər. Rövşən atası ilə bağlı xatirələrini bölüşüb.**

“O evə gələn kimi sakitlik olmalı idi. Bizə bildirmirdi, amma bizim başqa mühitdə böyüməyimizi istəyirdi. Uşaq evində çox ağır günlər yaşadığını deyirdi” deyə, o, əlavə edib.

“Adımı babam qoyub, onun adını daşıyıram. İstəyirdi ki, pilot olum. Mən də babamın arzusunu yerinə yetirdim və akademiyaya daxil oldum” deyə, aktyorun nəvəsi Arif Quliyev söyləyib.

## “Twitter”də ödənişli mesajlar ola bilər

**“Twitter” sosial şəbəkənin sahibi olan Amerikanın eyniadlı şirkəti öz platformasında pullu funksiyalar, o cümlədən tanınmış istifadəçilərə şəxsi mesajlar göndərməyinə görə ödənişin tələb olunması imkanlarını tətbiq etməyi düşünür.**

Trend-in məlumatına görə, bu barədə “The New York Times” qəzeti mənbələrə istinadən bildirib.

Məlumata əsasən, əlavə olaraq, ayrı-ayrı videolara baxmaq ödənişli funksiyalar kimi nəzərdən keçirilir. Ödənişli funksiyalarla bağlı müzakirələr şirkətin İlon Mask tərəfindən alınmasından dərhal sonra başlayıb.

Nəşrin məlumatına görə, İ.Mask razılaşmanı başa çatdırmaq üçün yüksək faizlə 13 milyard dollar kredit götürdüyü üçün bu tədbirlər tez qazanc əldə etmək məqsədi daşıyır.

# “Dünya mənsiz daha yaxşı olardı”

### Selena Qomez intihar etməyi planlaşdırıb

**Həyatından bəhs edən “Ağlım və mən” adlı sənədli filmini dünya ilə bölüşmək üçün gün sayan aktrisa, müğənni və prodüser Selena Qomez “Rolling Stones” jurnalına təəccüblü açıqlamalar verib.**




30 yaşlı ulduz 4 dəfə reabilitasiya mərkəzinə getdiyini və müalicə aldığını söyləyib. 20 yaşının əvvəllərində çox qaranlıq bir dövrə girdiyini və həyatına nəzarət etmədiyini bildirən aktrisa bunları deyib: “Depressiya ilə başlayıb sonra tənhalığa çevrildi. Yatağımdan qalxa bilmirdim. İstəmirdim ki, kimsə mənimlə danışsın. Dostlarım məni sevdikləri üçün yemək gətirirdilər, amma heç kim başıma gələnləri anlaya bilmirdi. Bəzən həftələrlə yataqdan qalxmırdım, pilləkənlərlə enmək nəfəsimi kəsildi”.



**Qomez 25 yaşında evlənəcəyini düşünüb:** “Evlənməyə belə yaxın olmamağım məni sındırdı. Gülməli idi, amma həqiqətən həyatımın bitdiyini düşünürdüm”.

Məşhurlar qrupuna çox da qarışmadığını bildirən müğənni “Sektorda yeganə dostum Taylor Svift idi. Mənə elə gəlirdi ki, o həyata aidiyyətim yox idi. Düşünürdüm ki, hamı gözəl həyat yaşayır. İnanılmaz idi, amma xoşbəxt idimi?” Selena bildirir.

Heç vaxt intihara cəhd etmədiyini, ancaq illərdir ki, bunu planlaşdırdığını bildirən aktyor, “Mənsiz dünyanın daha yaxşı olacağını düşünürdüm” söyləyib.

2018-ci ildə səslər eşitməyə başladığını və getdikcə psixi sağlamlığının pisləşdiyini deyən aktrisa heç kimə etibar edə bilmədiyini, hər kəsin ona pislik etmək istədiyini düşünüb. Dostlarının onun üçün “tanınmaz” ifadəsini işlətdiyini deyən aktrisa bu əhval-ruhiyyədən dərman sayəsində qurtula bildiyini bildirib.

**Bipolyar diaqnozu qoyulan müğənni qəbul etdiyi dərmanlar səbəbindən danışa bilmədiyini və bəzən harada olduğunu unutduğunu vurğulayıb:** “Hazırda 30 yaşım var, anın həzzini alıram. Fikrimi itirdiyim vaxt olmasaydı, indi burada olmazdım. Mənim bipolyar diaqnozum olan lupus olmasaydı, yəqin ki, hər zaman yaraşıqlı paltar geyən insanlardan biri olardım. Sadəcə bunu düşünmək məni pis edir”.

Keçmiş sevgilisi Castin Biberin həyat yoldaşı ilə səmimi pozalar verən ulduz ilk dəfə həmin məşhur fotodan danışıb. Gomez, “Bu elə də böyük bir iş deyil. Bu, heç bir problem yaratmır” deyib. Aktrisa jurnala müsahibəsində birinin (Hailey Bieber) onun haqqında şərh yazdığını və iki gün ərzində özünü pis hiss etdiyini bildirib.

**Turan**




## 30 minə yaxın iş yeri açılacaq

### Səudiyyə Ərəbistanı ilk elektromobil markasını təqdim etdi

**Səudiyyə Ərəbistanı krallığın elektriklə işləyən avtomobillərin istehsalında ixtisaslaşan ilk avtomobil markası olan “Sir”i təqdim edib.**

Bu barədə cümə axşamı krallığın vəliəhd şahzadəsi Məhəmməd bin Salman məlumat verib. Oxu.az xəbər verir ki, məlumata görə, “Sir” həm yerli istehlakçılar üçün, həm də Yaxın Şərqdə satış üçün avtomobillər istehsal edəcək.

Layihənin 150 milyon dollar həcmində xarici investisiya cəlb edəcəyi, 30 minə yaxın iş yerinin təmin ediləcəyi və 2034-cü ilə qədər onun gəlirliliyinin 8 milyard dollar olacağı gözlənilir. Qeyd edək ki, “Sir” Səudiyyə Ərəbistanının Suveren Fondu və Tayvanın elektronika istehsalçısı “Foxconn” arasındakı birgə müəssisədir. Səudiyyə istehsalı olan ilk elektrik avtomobilləri 2025-ci ildə satışa çıxarılacaq.

### ELANLAR

FHN tərəfindən Nəzərli Elvin İlham oğluna verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Mahmudov İlqar Əhməd oğlunun adına Qaradağ ray. Korgöz qəsəbəsi tərəfindən verilmiş 3 sot torpağın bələdiyyə sənədi itdiyi üçün etibarsız sayılır.

# “Zəhərli xanım”

### Qanın qoxusu ilə hər kəsi iflic edən Qloriya Ramirezin gizli ölümü

*(əvvəli səhifə 16,)*

Daha sonra bu insanların sayı 23-ə yüksəldi və həkimlər içəri girərək Ramirezin otağında olan hər kəsin çölə çıxmağı xahiş etdilər. Hadisə zamanı həkim bir həftə reanimasiya şöbəsində qalıb və çıxanda naməlum səbəbdən əlil arabasına bağlanıb.

Saat 20:50-də Ramires kədərli şəkildə xəstəxanada ölür. Amma o öldükdən sonra işlər daha da qəribələşdi. Mətbuat iki uşaq anası Ramiresi “Zəhərli xanım” başlıqları ilə gündəmə gətirib. Xəstəxananın həkimləri nə gənc qadının, nə də tibb işçilərinin başına gələnləri anlaya biliblər. Xəstəxanaya gələn karantin qrupu hadisə yerində heç bir iz tapmayıb. Ramirezin cansız cəsədini çıxarmaq üçün xəstəxanaya gələn qoruyucu paltar geyinmiş xüsusi qrup təcili yardım otağında toksikoloji müayinə aparsa da, havada ammonyak, fosgen, hidrogen siyanid və hidrogen sulfid kimi uçucu birləşmələrin heç biri aşkar edilməyib.

Qanın qoxusu ilə hər kəsi iflic edən “zəhərli xanım” Qloriya Ramirezin gizli ölümü ilə bağlı 3 yarılma aparılıb.

Qloriyanın cəsədi hər ehtimala qarşı qoşa torbalara bükülmüş və hava keçirməyən alüminium tabuta qoyulmuşdu. Birincisi ölümündən 6 gün sonra, ikincisi 6 həftə sonra, sonuncusu isə dəfnindən bir qədər əvvəl baş verib.

Ramirezin ölümündən bir aydan çox sonra, martın 25-də keçirilən ikinci yarılma Ramirezin bədənində tilenol, lidokain, kodein və tiqan aşkar edib. Yarılma zamanı qan analizlərində də böyük miqdarda dimetilsulfon aşkar edilib.

Tiqan ürəkbulanma əleyhinə bir dərman idi və ammonyak qoxusunun mənbəyi olduğu düşünülürdü, çünki o, bədəndə aminə çevrilmişdi. Daha da önəmlisi, toksikologiya hesabatı nəticəsində Ramirezin qanında və toxumalarında çoxlu miqdarda dimetilsulfon aşkar edilib. Ölümündən üç həftə sonra dimetilsulfonun miqdarı normal bir insanın bədənində olandan düz üç dəfə çox olub. Yarılma nəticəsində məlum olub ki, Qloriya inkişaf etmiş uşaqlıq boynu xərçənginin səbəb olduğu kəskin böyrək çatışmazlığı səbəbindən dünyasını dəyişib.



Qloriya Ramirezin gizli ölümündən sonra səlahiyyətlilər xəstəxana işçilərinin həddindən artıq stres keçirdikləri və xəstənin bədəninin qoxusundan yaranan kütləvi isteriyadan əziyyət çəkdiyi qənaətinə gəliblər. Lakin xəstəxana bu qənaətlə razılaşmayıb.

Yeditepe Universiteti rektor müavini və Əczaçılıq Toksikologiyası kafedrasının müdiri, professor Əhməd Aydın mövzu ilə bağlı açıqlama verib.

“Mümkün dimetilsulfon zəhərlənməsi bu ölümlərlə əlaqəli deyildi, çünki dimetilsulfonun zəhərli təsiri kifayət qədər aşağıdır. Bu ölüm sirr olaraq qalır. İnsanın cəsədindən bu şəkildə ayrılıb ətrafdakı insanların ölümünə səbəb ola biləcək qədər təhlükəli bir maddənin ya siyanür, ya da kimyəvi silah olduğu ağla gəlir.

**Turan**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3171



## "Dünya mənsiz daha yaxşı olardı"

### Selena Qomez intihar etməyi planlaşdırıb

**Həyatından bəhs edən "Ağlım və mən" adlı sənədli filmini dünya ilə bölüşmək üçün gün sayan aktrisa, müğənni və prodüser Selena Qomez "Rolling Stones" jurnalına təəccüblü açıqlamalar verib.**

30 yaşlı ulduz 4 dəfə reabilitasiya mərkəzinə getdiyini və müalicə aldığını söyləyib. 20 yaşının əvvəllərində çox qaranlıq bir dövrə girdiyini və həyatına nəzarət etmədiyini bildirən aktrisa bunları deyib: "Depressiya ilə başlayıb sonra tənhalığa çevrildi. Yatağımdan qalxa bilmirdim. İstəmirdim ki, kimsə mənimlə danışsın. Dostlarım məni sevdikləri üçün yemək gətirirdilər, amma heç kim başıma gələnləri anlaya bilmirdi. Bəzən həftələrlə yataqdan qalxmırdım, pilləkənlərlə enmək nəfəsimi kəsildi".

*(səh.15)*

## Ərini başqa qadınlara icarəyə verir



**Britaniyada qeyri-adi bir hadisə baş verib.**

Lent.az xəbər verir ki, 38 yaşlı Laura əri Ceymsi xırda işlərində kömək etmək üçün başqa qadınlara icarəyə verir.

O, ərini 45 funta (100 AZN) icarəyə verir. Ceymsi işlətmək istəyən o qədər çoxdur ki, o, həftədə 6 gün yarımştat işlədiyi üçün bu fəaliyyət indi tam ştatlı işə çevrilib. O, hətta iş saatlarını azaltmağa məcbur olub. Əvvəllər anbardar işləyən Ceyms işdən çıxaraq həyat yoldaşı ilə kiçik şirkətlərini qurub. Əri müştərilər üçün iş görərkən, Laura gündəmi bu münasibətlə yaratdığı veb sayt vasitəsilə idarə edir.

## Monikanın 18 yaşlı qızı ilk dəfə filmə çəkiləcək



**Dünyaca məşhur aktrisa Monika Belluççinin 18 yaşlı qızı ilk dəfə filmlərdə rol alacaq.**

Olay.az xəbər verir ki, bu barədə "Variety" məlumat yayıb. Qeyd olunur ki, Deva Kassel italyan kinorejissoru Laura Luçettinin "Gözəl yay" filminin əsas personajlarından birinə çevrilib.

Ekran işində cəsarətli model Amelia rolunu aktrisanın qızı canlandıracaq.

## Hadisə qalmaqallı üzüyü satdı



**Türkiyəli məşhur müğənni Hadisə keçmiş həyat yoldaşı, iş adamı Mehmet Dinçerlerin ona evlilik təklifi edərkən taxdığı üzüyü satıb.**

Axşam.az xəbər verir ki, üzük 182 min lirəyə (təxminən 16 min 609 manat) yeni alıcısına təqdim olunub. Hadisənin pulu heyvan dərnəklərinə bağışladığı bildirilib.

Qeyd edək ki, Hadisə ilə Mehmet sentyabrın 30-da boşanıb. Daha əvvəl sözügedən üzüyün saxta olduğu iddia olunmuşdu.



# "Zəhərli xanım"

### Qanın qoxusu ilə hər kəsi iflic edən Qloriya Ramirezin gizli ölümü

**"Zəhərli xanım" Qloriya Ramirez əri və iki uşağı ilə Riversaydda yaşayan təvazökar evdar qadın idi. "Şərq" türk mediasına istinadən xəbər verir ki, hamı onu mehriban və gülərüz bir insan kimi tanıyırdı. Lakin onun dəhşətli hekayəsi uşaqlıq boynu xərçəngi üçün təcili yardım otağına daxil olanda başladı. Xəstəxanada çalışan 23 nəfərin həyatı qaraldı və o, bir saat ərzində dünyasını dəyişdi. Bəs dəhşətli hadisənin səbəbi nə idi? Yeditepe Universiteti rektor müavini və Əczaçılıq Toksikologiyası kafedrasının müdiri, professor Ahmet Aydın gizli hadisə ilə bağlı açıqlama verib.**

Qloria Ramirez (11 yanvar 1963 - 19 fevral 1994) Kaliforniyada yaşayan 31 yaşlı qadın idi. Gənc qadın uşaqlıq boynu xərçənginin dördüncü mərhələsi ilə mübarizə aparırdı. Qəfildən xəstələnən və təcili yardım otağına aparılan Qloriya həkimlərin daha əvvəl görmədiyi şəkildə həyatını itirib.



Tarix 19 fevral 1994-cü ili göstərir. "General Hospital"ın bütün işçiləri Ramirezin həyati funksiyalarını normallaşdırmaq üçün müxtəlif tədbirlər görürmüşlər. Gənc qadına diazepam, midazolam və lorazepam vurulub. Lakin onların heç biri işə yaramır və ürəyinin döyüntüsü zəiflədiyi üçün həkimlər onu şok cihazına bağlamalı oldular.

Tibb bacısı Syuzan Keyn Ramirezin qolundan qan alana qədər hər şey normal idi.

Qanını almaq üçün yaxınlaşan tibb bacısı Keyn nəyinsə səhv olduğunu anlayıb. Tüpə baxan tibb bacısı onu qanda üzən sarı hissəcikləri görən feldşer Julie Gorchynskiyə verib və Keyn huşunu itirib. Qorçinski isə ürəyi bulanmağa və huşunu itirməyə başlayıb. Tənəffüs terapevti Maureen Welch huşunu itirən üçüncü şəxs olub. Ramirezlə təmasda olan 6 nəfərdə huşunu itirmə, nəfəs darlığı, ürək bulanması və müvəqqəti iflic kimi simptomlar görünməyə başlayıb.

*(ardı səhifə 15)*




# İnsanlar gələcəkdə belə görünəcək

### Texnologiya və telefonlar orqanizmi köklü dəyişəcək

**Mütəxəssislər 3000-ci ildə necə görünə biləcəyimiz dair "Mindy" adlı model yaradıblar. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, özəl şirkət tərəfindən yaradılmış modelin xarici görünüşü texnologiyadan uzun müddət istifadənin insan orqanizmini dəyişəcəyi ehtimalına əsaslanır.**

Texnologiya insan həyatında gündən-günə daha çox yer tutur. Bunların zamanla insan həyatına mənfi təsir edəcəyini iddia edənlər də az deyil.

Özəl telekommunikasiya şirkəti bu sahədə araşdırma aparıb. Tədqiqat çərçivəsində insanların min ildən sonra necə görünəcəkləri təsəvvür edilib. Araşdırma ilə "Mindy" adlı model yaradılıb.

Kifayət qədər distopik olan bu model texnologiyadan istifadənin insan orqanizminə mənfi təsir edəcəyi fikri üzərində cəmlənir. Mindi əyilmiş kürəyi, enli boyun, caynaqlı əlləri və ikinci göz qapağına malikdir.

Bildirilir ki, yaradılan qrotesk (absurd xüsusiyyətləri olan varlıqları yenidən təsvir edən) model texnologiyadan getdikcə daha çox asılı olan insanları təsvir edir. "Telefonlarımızı tutma tərzimiz müəyyən təmas nöqtələrində gərginliyə səbəb ola bilər - kubital tunel sindromu kimi tanınan "mətn pəncəsi"nə səbəb ola bilər" deyir "Med Alert Help"dən Dr Nikola Djordjevic.

Modelə görə saatlarla telefonlarımıza baxmaq təkcə kürəkləri deyil, həm də boyunları qalınlaşdırır. Smartfondan istifadə edərkən biz daim aşağı baxırıq, bu da boyun əzələlərimizin daha çox işləməsinə səbəb olur.

Tədqiqatın digər qrotesk xüsusiyyətləri arasında daha qalın kəllə və daha kiçik beyin və işığa həddindən artıq məruz qalmanın qarşısını almaq üçün ikinci göz qapağı daxildir. Təkamül nəzəriyyəsinə görə, ikinci göz qapağı mutasiyası sağ qalmağa təsir etməsə, qalıcı ola bilməz.

Ancaq bu şişirdilmiş təsvir ekrana çox baxmağın gözləri yorması fikri üzərində qurulub.

**Turan**

## Canavarların əhliləşməsinin qarşısı alınır

### İnsanlara paintball silahından atəş açmağa icazə verilir



**Niderlandda qurdların əhilləşməsinin qarşısının alınması üçün paintball (qarşıdakı rəqibə rəng sıçradan pnevmatik silah) silahından istifadə ediləcəyi gözlənilir. Mütəxəssislər qurdları insanlardan uzaqlaşdırmaq üçün bu silahdan istifadəni tövsiyə edir.**

Bu barədə "NTV.com.tr" xəbər verir. Bildirilir ki, Niderlandın Gelderland əyalətinin tabeliyində olan "Hoge Veluwe" Milli Parkında bəslənən bir canavar parkı ziyarət edənlərə, orada yürüş edənlərə yaxınlaşır. Bunun qarşısını almaq üçün paintball silahından istifadə ediləcək. Mütəxəssislər canavarların insanlara getdikcə daha çox yaxınlaşmasınını onların əhilləşməsinə səbəb olacağını, təbii xassələrini getdikcə itirəcəklərindən narahatdır. Bu baş verməsin deyə, insanlara yaxınlaşmaq istəyən canavarlara qarşı paintball silahından atış açmağa icazə veriləcək. Canavarlar bu şəkildə insanlardan uzaqlaşdırılacaq. Niderlandda canavarlar mühafizə olunan heyvan növünə aiddir. Onları ovlamaq, zərər vermək qanunla qadağandır. Paintball silahından istifadəyə görə isə qaydalara dəyişiklik edilməlidir. Yerli mediada çıxan xəbərlərə görə isə Milli Parkın müdiri Seger Emmanuel baron van Voorst tot Voorst bu qərara qarşıdır. Voorst "insanlara hücum etməsinlər deyə heyvanları qorxutmaq istəyirlər. Açıq şəkildə, qurdları öldürün, deyə bilmirlər. Belə gizli şəkildə çözüm axtarırlar" deyən park müdiri bunun yolverilməz olduğunu bildirib. Hazırda Niderlandda 20-yə yaxın yetişkin canavarın mövcud olduğu deyilir.

**Məlahət**